30 oktyabr 2020-ci il
№36 (8900)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

**İlham ƏLİYEV,**
**Ali Baş Komandan**

# Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!



## Biz zəfər çalacağıq!

## İşğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır

**İlham Əliyev** @azpresid... · 22 окт.
Müzəffər Azərbaycan Ordusu Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfidinli, Aşağı Rəfidinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstəlibəyli, Dərzili kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpresid... · 22 окт.
Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan Ordusuna!

**İlham Əliyev** @azpresid... · 22 окт.
Müzəffər Azərbaycan Ordusu Zəngilanın Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərini və Ağbənd qəsəbəsini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpresid... · 23 окт.
Müzəffər Azərbaycan Ordusu Xocavənd rayonunun Dolanar, Bünyadlı kəndlərini, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!



- Bizim əsas problemimiz Ermənistanın Azərbaycana təcavüzünü aradan qaldırmaq, işğal olunmuş torpaqlarımızı azad etmək, respublikanın ərazi bütövlüyünü təmin etməkdir.

- Şuşa bütün azərbaycanlılar üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir... Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur.

- Biz öz torpaqlarımızın bir qarışını belə heç vaxt Ermənistana verməyəcəyik, - bunu onlar bilməlidirlər. İşğal olunmuş torpaqlarımızın hamısı azad edilməlidir, respublikamızın ərazi bütövlüyü bərpa olunmalıdır, - bunu onlar bilməlidirlər. Dünyanın böyük dövlətləri, beynəlxalq ictimaiyyət, Minsk qrupuna həmsədrlik edən dövlətlər bunu artıq dərk edir və bəyan edirlər.

- Mən bu gün bir də bəyan edirəm ki, biz məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq... Ancaq eyni zamanda Azərbaycanın dövlət müstəqilliyini qorumaq, ərazi bütövlüyünü bərpa etmək, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün bizim güclü ordumuz olmalıdır... Ordunun güclənməsi, inkişaf etməsi Azərbaycan dövlətinin müstəqilliyinin əsas zəmanəti, əsas təminatıdır.

**Heydər ƏLİYEV, ümummilli lider**

# Biz öz torpaqlarımızın bir qarışını belə heç vaxt Ermənistana verməyəcəyik, – bunu onlar bilməlidirlər



# Düşməni sona qədər qovacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!

**Prezident, Ali Baş Komandan İlham Əliyevin oktyabrın 25-də Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində keçirilən operativ müşavirədəki çıxışından**

- İşğal olunmuş torpaqlarımızın bir hissəsi bu müddət ərzində işğalçılardan azad edilibdir, 100-dən çox yaşayış məntəqəsi - şəhərlər, kəndlər işğalçılardan azad edilibdir. Azad edilmiş şəhər və kəndlərimizdə artıq Azərbaycan bayrağı ucaldılıbdır.

- Ermənistan döyüş meydanında bizim qarşımızda duruş gətirə bilmir və yenə də hər zaman olduğu kimi, öz çirkin əməllərini yaşayış məntəqələrimizi, mülki əhalinin yaşadıqları yerləri atəşə tutur. Bu namərd atəş nəticəsində 60-dan çox mülki şəxs həlak olub, 300-ə yaxın mülki şəxs yaralanıb.

- Necə ki, döyüş meydanında biz qələbə qazanırıq, siyasi müstəvidə də qələbə qazanırıq. Düşməni necə ki, döyüş meydanından qovuruq, düşmənin havadarlarının təxribat xarakterli addımlarına da lazımi cavab veririk. Azərbaycan tək deyil, beynəlxalq birlik tərəfindən ərazi bütövlüyümüz tanınır, biz beynəlxalq hüquq normaları çərçivəsində fəaliyyət göstəririk.

- İki dəfə Ermənistanın xahişi ilə, böyük dövlətlərin təklifi ilə atəşkəs elan olunmuşdur. İki dəfə də Ermənistan bu atəşkəsi pozub. Birinci dəfə elə bir gün keçməmiş Gəncəni bombalamışdır. İkinci dəfə atəşkəsdən iki dəqiqə sonra atəşkəsi pozmuşdur. Belə olan halda, Azərbaycan əlbəttə ki, onlara layiqli cavabını verib və verəcək. Bundan sonra da düşməni torpaqlarımızdan qovacaq, sona qədər qovacaq.

- Yenə də deyirəm, Azərbaycan Ordusu böyük rəşadət göstərir, peşəkarlıq göstərir. Biz 1990-cı illərin əvvəllərində bir neçə il ərzində torpaqlarımızı itirmişik. Bu gün hələ bir ay keçməyib artıq Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı rayonlarının bir hissəsi işğalçılardan azad edilib. Yenə də deyirəm, hər gün cəbhədən yaxşı xəbərlər gəlir.

- Mən bu günlər ərzində müntəzəm olaraq Azərbaycan xalqına müraciət edirəm, öz fikirlərimi bildirirəm, uğurlar haqqında məlumat verirəm. Bu gün də Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da biz haqq yolumuzdan dönməyəcəyik! Heç bir qüvvə bizim iradəmizə təsir edə bilməz. Düşməni sona qədər qovacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!

**İlham ƏLİYEV,**
**Ali Baş Komandan**




# İşğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır

**İlham Əliyev** @azpresid... · 23 окт.
Müzəffər Azərbaycan Ordusu Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpresid... · 26 окт.
Müzəffər Azərbaycan Ordusu Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər,

**İlham Əliyev** @azpresid... · 26 окт.
Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndlərini və Qubadlı şəhərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpresident · 28 окт.
Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çüllü, Quşçular, Qaraağac,

**İlham Əliyev** @azpresident · 28 окт.
Qubadlının Qiyaslı, Ədilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

# Ermənistanı xilas etmək istəyirsinizsə, deyin ki, çıxsın torpağımızdan, dərhal rədd olsun!

Prezident İlham Əliyevin oktyabrın 26-da xalqa müraciətindən



- Biz döyüş meydanında tarixi ədaləti bərpa edirik. Çünki Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub. Biz Qarabağ tarixini yaxşı bilirik və bu tarixi dünya ictimaiyyətinə çatdırmaq üçün son illər ərzində böyük işlər görülübdür.

- Kürəkçay sülh müqaviləsini Qarabağ və Şuşa xanı İbrahimxəlil xan imzalamışdır, digər tərəfdən Çar Rusiyasının generalı imzalamışdır. O müqavilə internetdə var, hər kəs baxa bilər. Əminəm ki, mənim bu sözlərimdən sonra indiki döyüş meydanında vəziyyəti maraqla izləyən geniş beynəlxalq auditoriya gedib bu saytlara girəcək, baxacaq görəcək ki, o müqavilədə erməni xalqı haqqında bir kəlmə də yoxdur.

- Çünki yaxşı başa düşürdülər ki, Heydər Əliyevin varlığı, sovet rəhbərliyində onun böyük nüfuza malik olması onların planlarını alt-üst edirdi... Qəsdən şər-böhtan kampaniyası aparılırdı ki, Heydər Əliyev amili aradan qaldırılsın. Heydər Əliyev bütün vəzifələrdən gedəndən sonra 2 həftə keçməmiş baş qaldıran erməni separatçılar məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın, Ermənistana verilsin və bizim xalqımızın bəlaları o gündən başladı.

- Bu düşmənlə nə qədər danışıqlar aparmaq olar? Özü də düşmən harınlaşır, azğınlaşır, qudurur və bizə deyirlər ki, yox, ancaq sülh yolu ilə, bunun hərbi variantı yoxdur. Kim deyir ki, yoxdur? Bəs, indi məsələnin hərbi variantı deyilmi? Biz nə edirik? Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetiririk. Halbuki bu, BMT Təhlükəsizlik Şurasının vəzifəsidir. Biz təkbaşına icra edirik. Biz yeni reallıq yaratmışıq. Hesablaşın!

- Ermənistanı xilas etmək istəyirsinizsə, deyin ki, çıxsın torpağımızdan, dərhal rədd olsun! Şuşada, Cıdır düzündə sərxoş vəziyyətdə oynayan o təlxək bəyan etsin ki, çıxıram.

- Vasitəçi neytral deyilsə, o, vasitəçi ola bilməz. İndi vasitəçi ölkələr gərək yeni bir funksiya fikirləşsinlər, nə ilə məşğul olacaqlar? İndi artıq beş rayonun azad edilməsindən danışa bilməzlər, hanı 5 rayon, bizdədir onların artıq 4-ü. O məsələ artıq getdi, qurtardı getdi. Özümüz götürmüşük - Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı. Bu rayonların böyük hissəsi bizdədir. Keçmiş Hadrut - indiki Xocavənd rayonunun bir hissəsi bizdədir.

- Atəşkəs deyiblər, eybi yoxdur, qoy olsun. Ermənistan bunu pozub, hər bir pozuntunu biz qeydə alırıq, hər bir. Tapşırıq vermişəm, qeydə alınır, dərhal ATƏT-in nümayəndəsinə və atəşkəsdə maraqlı olan digər ölkələrə göndərilir ki, baxsınlar, ermənilər atəşkəsi nə qədər pozublar. Bizdə bütün məlumatlar var. Hərbi-siyasi həll yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsini reallaşdırmalıdır.

- İndi Ermənistanın yeni hökuməti Paşinyanın simasında demirdi ki, Ermənistanı idarə edən adamlar cinayətkardır? Mən də onu deyirdim. Bəs, necə oldu, Paşinyana qədər 20 il ölkəni idarə edənlər cinayətkardırsa, bu ölkə nədir? Cinayətkar ölkədir.

- Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!

- Əziz həmvətənlər, mən hələ müharibənin ilk günlərində sizə söz vermişdim ki, biz düşməni torpaqlarımızdan qovacağıq, sona qədər qovacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**Heç bir hədə-qorxu BİZİ yolumuzdan döndərə bilməz**

# İnanırıq ki, yaxın günlərdə Siz xalqa növbəti müraciətinizdə Şuşanın, Laçının, Kəlbəcərin və digər işğal altında olan torpaqlarımızın azad olunması xəbərini bəyan edəcəksiniz



## Müəllimlər və məktəblilər Ali Baş Komandan İlham ƏLİYEVƏ yazırlar:

**"Azərbaycanın Prezidenti olduğunuz üçün xalqımız xoşbəxtdir"**

**Hörmətli Prezidentimiz.**

Sizi Lənkəran müəllimləri adından salamlayırıq. Mükəmməl savada və ağıla, böyük vətənpərvərlik hisslərinə və möhkəm qətiyyətə əsaslanan nümunəvi idarəçiliyinizdə biz hər zaman Sizi dəstəkləyirik.

Cənab Ali Baş Komandanımız, xalqımıza yaşatdığınız bu sevincə görə başda Siz olmaqla, bütün Azərbaycan Ordusuna minnətdarlığımızı bildiririk.

Bu şərəfli mübarizəmizdə, haqq yolumuzda Tanrı Sizi, Ordumuzu, xalqımızı qorusun. Tezliklə Qarabağımızın tam azadlığa qovuşmasını, bütün şəhidlərimizin ruhunun şad olmasını diləyirəm.

Qələbə bizimdir! Qarabağ Azərbaycandır!

Hörmətlə,

**Əkbərova Pərvin Güloğlan qızı,**
*Lənkəran rayonu, Gərmətürk kəndi*

---

**Əziz Prezidentim.**

Mən Qazax rayonunda yaşayıram, S.Əfəndiyev adına 1 nömrəli tam orta məktəbin 5-ci sinif şagirdiyəm. Vətənimi çox sevirəm. İşğaldan azad edilmiş torpaqlarımıza görə sevinirəm və Sizi təbrik edirəm.

Əsgər əmilərimə də təşəkkürümü bildirirəm. Azərbaycan inamla irəli addımlayır. Mən əminəm ki, bizim Qələbəmizə az qalıb. Arzum budur ki, böyüyəndə azad edilmiş torpaqlarımıza gedim.

Sizə işlərinizdə uğurlar arzulayıram. Mən Sizi çox sevirəm.

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Hörmətlə,

**Allahverdiyeva Mürəndə Xəqani qızı,**
*Qazax rayonu, Ağköynək kəndi*

---

**Hörmətli cənab Prezident.**

Mən 4-cü sinif şagirdiyəm, adım Ayxandır. Qəbələ rayonunun Vəndam qəsəbəsində yaşayıram. Mən Sizə təşəkkürümü bildirmək istəyirəm.

Sizin əmrinizlə əsgərlərimiz Qarabağda irəliləyirlər. Mən fəxr edirəm ki, azərbaycanlıyam. Mən indi başa düşürəm ki, qələbə hissi nə deməkdir. Amma əsas qələbəmiz irəlidədir. İnşallah, Qarabağı alacağıq və oraya üçrəngli şanlı Bayrağımızı sancacağıq.

Mən Sizinlə fəxr edirəm, Ali Baş Komandan. Azərbaycanın Prezidenti olduğunuz üçün xalqımız xoşbəxtdir. İnşallah, uzun illər boyu Prezidentimiz olacaqsınız. Mənim 84 yaşlı nənəm də Sizi təbrik edir.

Ulu Öndərimiz Heydər Əliyevə Allah rəhmət eləsin. Polad Həşimova, Mübariz İbrahimova və bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

Allah cəbhədə döyüşən igid əsgərlərimizi qorusun. Özünüzə yaxşı baxın.

Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Hörmətlə,

**Aslanlı Ayxan,**
*Qəbələ rayonu, Vəndam qəsəbəsi, şagird*

**Hörmətli Prezident, cənab Ali Baş Komandan!**

Tarix boyu xalqımız qəhrəmanlıq ənənələri ilə ad-san çıxarıb, yadellilərə qarşı mərdliklə döyüşüb. Böyük sərkərdələr yetirən Azərbaycan xalqının çox yaxşı bir deyimi də var: "Ordun varsa, yurdun var". Bu gün bizim müqəddəs yurdumuzu qoruyan rəşadətli Ordumuz və Ordumuzun Sizin kimi güclü sərkərdəsi var. Artıq 20 gündən çoxdur ki, Sizin komandanlığınızla müqəddəs yurd yerlərimizin düşmən tapdağından azad olunması uğrunda uğurlu hərbi əməliyyatlar həyata keçirilir. Bu uğurlu hərbi əməliyyatlarla yanaşı, eyni zamanda Sizin dünya şöhrətli siyasi lider kimi beynəlxalq ictimaiyyət qarşısında qətiyyətli çıxışlarınız xalqımızda böyük qürur hissi yaradıb.

Möhtərəm Prezident.

Hər günümüz şad xəbərlərlə açılır. Cəbrayıl, Füzuli, Zəngilan şəhərlərinin, bir sıra kəndlərin və yaşayış məntəqələrinin düşmən tapdağından azad olunması bütün dünya azərbaycanlılarını qəlbən sevindirir. Bütün bu şad xəbərləri Sizdən eşitməyi ikiqat qələbə sayırıq. İnanırıq ki, yaxın günlərdə Siz xalqa növbəti müraciətinizdə Şuşanın, Laçının, Kəlbəcərin və digər işğal altında olan torpaqlarımızın azad olunması xəbərini bəyan edəcəksiniz. Biz Sizinlə qürur duyuruq!

Dərin hörmət və ehtiramla,

**Mürsəlov Rahim Şirqazi oğlu,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi, UNEC-in İqtisadiyyat fakültəsinin dekan müavini*

---

**Hörmətli Ali Baş Komandan!**

Sentyabrın 27-də erməni təxribatından sonra Sizin rəhbərliyinizlə Ordumuzun həyata keçirdiyi əks-hücum əməliyyatı nəticəsində qazanılan uğurlar xalqımızın, o cümlədən biz qarabağlıların hədsiz sevincinə səbəb olur. Ən müasir silah-sursatla təchiz olunmuş qüdrətli Azərbaycan Ordusu düşməni darmadağın edərək onları tarixi torpaqlarımızdan qovur.

Dəyərli Prezidentimiz, biz Cəbrayıl rayon Akademik Əşrəf Hüseynov adına Əmirvarlı kənd orta məktəbinin kollektivi adından bu tarixi günləri bizə bəxş etdiyiniz üçün Sizə, Ordumuza minnətdarıq. Bu gün biz illərdir həsrətini çəkdiyimiz doğma Cəbrayılımıza qayıdacağımız günü səbirsizliklə gözləyirik. İşğaldan azad edilən ərazilərimizin videogörüntülərinə baxarkən erməni cəlladlarının bu torpaqlarda törətdiyi vəhşilikləri, vandallıqları hər birimiz ürək ağrısı ilə seyr edirik. Lakin əminik ki, məhz Sizin rəhbərliyinizlə işğaldan azad edilən bütün torpaqlarımız, o cümlədən Cəbrayıl rayonunun bütün şəhər və kəndləri yenidən bərpa ediləcək, burada yeni infrastruktur, sosial obyektlər inşa ediləcək.

Əziz Prezidentimiz, inanırıq ki, ən qısa zamanda Əmirvarlı kəndində inşa ediləcək yeni məktəbin açılışını Sizinlə və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva ilə birgə edəcəyik.

Allah Sizi, qüdrətli Ordumuzu qorusun!

Hörmətlə,

**Məmmədova Lətafət,**
*Cəbrayıl rayon Akademik Əşrəf Hüseynov adına Əmirvarlı kənd orta məktəbin direktoru,*
**Bayramova Zöhrəbanı,** *direktor müavini,*
**Xudiyeva Qənirə,** direktor müavini

**Əziz Prezidentim.**

Televizorda Sizi daim izləyirik. Bizdə evdə hamı hər gün Sizin üçün dua edir. Mən də dua edirəm. Çünki Siz bizə öz doğma Qarabağımızı qaytarırsınız. Bundan sonra Qarabağda hər evdə bizim işığımız yanacaq. Erməni vəhşilərinin atdığı mərmi səslərini evimizdə eşidirik. Gecələr çox qaranlıq olur. Amma işıqlarımız daim yandığı üçün bu bizi qorxutmur. Bu il yay tətilində mən Şuşanı görməyə gedəcəyəm.

Şuşada da Sizin üçün dua edəcəyəm. Sizi çox istəyirəm, mənim Prezidentim.

Hörmətlə,

**Gültac İmanova,**
*Füzuli rayonu Şəhid Ağamoğlan Cəbrayılov adına Allıxanlı kənd orta məktəbinin 5-ci sinif şagirdi*

---

**Əziz və hörmətli Ali Baş Komandan.**

Mən Xaçmaz şəhəri İsmət Qayıbov adına 3 nömrəli tam orta məktəbin 7b sinif şagirdi Zakirli Selcan Əbülfəz qızı, mən və ailəm Sizinlə fəxr edirik və hər Sizin çıxışınızı diqqətlə izləyirik.

Sizin çıxışlarınızı səbirsizliklə gözləyirik. Çünki, bilirik ki, Siz yenə də bizi yeni Qələbə xəbərləri ilə sevindirəcəksiniz.

Allah canınızı sağ eləsin.

Hörmətlə,

**Selcan Zakirli,**
*Xaçmaz rayonu*

---

**Ali Baş Komandan İlham Əliyev!**

Ordumuzun uğurlu döyüş əməliyyatları davam edir. Mən inanıram ki, tezliklə bizim Şanlı Bayrağımız Qarabağın hər tərəfində dalğalanacaq. Ermənilərin atdığı raketlər neçə-neçə evlərimizi dağıdıb. Təki Azərbaycan əsgərinin heç birinə zərər dəyməsin. Əsgərimizin bir dırnağına yüz bina qurban olsun. Mənim beş yaşlı qardaşımın adı Zəfərdir. Zəfər xəbərlərdə Sizi izləyərkən hər dəfə Sizdən biz zəfər çalacağıq sözünü eşidəndə bütün ailəmiz kimi, o da sevinir. Həmişə deyir ki, televizorda məndən danışırlar. Mən ona adının mənasını başa salandan sonra o, öz adı ilə daha çox fəxr edir. Ailəmizin ən kiçik üzvü olan Zəfər də bizimlə birlikdə səbirsizliklə Sizin çıxışlarınızı, qələbə xəbərlərinizi gözləyir. Sizin çıxışlarınız hər birimizin qələbəyə olan inamını artırır.

Biz Sizinlə fəxr edirik, cənab Prezidentimiz!

Hörmətlə,

**Quliyeva Nuray Qalib qızı,**
*Xocalı rayon Kosalar kənd tam orta məktəbin 4-cü sinif şagirdi, Gəncə şəhəri*



# Prezident İlham ƏLİYEV

## Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara layiqli cavab veriləcək




**Erməni silahlı qüvvələrinin raketlərlə hücumu nəticəsində Bərdədə həlak olanlara Allahdan rəhmət diləyir, ailələrinə başsağlığı verir, yaralıların şəfa tapmasını diləyirəm. Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara layiqli cavab veriləcək.**

**AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində etdiyi paylaşımda bildirib.**

---

# Birinci vitse-prezident Mehriban ƏLİYEVA

## Bu cür vəhşicəsinə hücumlar onu göstərir ki, ermənilərin qəddarlığının həddi yoxdur

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Bərdəyə növbəti dəfə raket hücumu ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib.**

**AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:**

**"Bu gün Ermənistan silahlı qüvvələri dinc Azərbaycan şəhəri Bərdəyə növbəti dəfə qəddarcasına, qeyri-insani zərbə endiriblər.**

**Zərbə nəticəsində 21 nəfər həlak olub, 70 nəfər ciddi xəsarət alıb. Təəssüf ki, qurbanların sayı artmaqda davam edir.**

**Bu cür vəhşicəsinə hücumlar onu göstərir ki, ermənilərin qəddarlığının həddi yoxdur.**

**Üstəlik, Azərbaycanın dinc mülki əhalisinə hər hücum Ermənistanın ağlını itirmiş hərbi-siyasi rəhbərliyinin total mənəvi tənəzzülünə dəlalət edir.**

**Bu hücumların məqsədi aydındır - Azərbaycan xalqını qorxutmaq və bizim ordumuzu Ermənistan ərazisinə cavab zərbəsi endirməyə məcbur etmək. Bu, üçüncü tərəfləri münaqişəyə cəlb etməyə imkan verərdi.**

**Lakin düşmənimiz bilməlidir ki, heç nə bizi haqq yolundan dönməyə məcbur edə bilməz. Hər hücum bizi daha da güclü edir və işğal olunmuş ərazilərimizin erməni təcavüzkarlardan azad edilməsi kimi müqəddəs missiyanı başa çatdırmağın zəruri olmasına inandırır.**

**Həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir və yaralananların tezliklə sağalmalarını arzulayıram.**

**Azərbaycan Ordusu düşməni döyüş meydanında sıxışdırdığı bu günlərdə biz həmrəyliyimizi qoruyub saxlamalı və Prezidentimizin ətrafında möhkəm birləşməliyik.**

**Yalnız möhkəm yumruq kimi birləşməklə ədalətin zəfər çalmasına nail olacağıq, ona görə ki, Qarabağ Azərbaycandır!**

**Uca Tanrı Vətənimizi və Azərbaycan xalqını qorusun!".**



## Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Bərdəyə raket hücumu nəticəsində həlak olanların yaxınlarına başsağlığı verib

**"Bu gün Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları zonasından kənarda yerləşən Bərdə şəhərini raket atəşinə məruz qoyaraq humanitar atəşkəs rejiminin şərtlərini növbəti dəfə kobud şəkildə pozublar. "Smerç" qurğusundan buraxılmış kasetli raketlərlə atəş nəticəsində dörd mülki şəxs, o cümlədən yeddi yaşlı qız həlak olub. Dördü uşaq olmaqla on dörd nəfər ciddi xəsarət alıb".**

**AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" hesabında edilən paylaşımda yer alıb.**

**Paylaşımda deyilir: "Silahlı münaqişələr zamanı mülki şəxslərin qətlə yetirilməsi 1949-cu il Cenevrə Konvensiyalarının və bütövlükdə beynəlxalq humanitar hüquq normalarının ən kobud şəkildə pozulması deməkdir. Erməni təcavüzkarlarının əli ilə daha neçə günahsız insan həlak olmalıdır ki, dünya birliyi bu cinayətləri dinməzcə seyr etməyə son qoysun? Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm, yaralananların tezliklə sağalmalarını arzulayıram. Biz öz torpağımızı təcavüzkarlardan azad edəcəyik və bu cinayətlərə son qoyacağıq.**

**Uca Tanrı Vətənimizi qorusun!"**

---

## Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatı

2020-ci il oktyabrın 28-də saat 13 radələrində düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalarından istifadə edilməklə zərbələrin endirilməsi nəticəsində 21 nəfər həlak olmuş, 70-ə yaxın şəxs isə yaralanmış, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir.

Bundan başqa, təcavüzkar erməni silahlı qüvvələri tərəfindən 2020-ci il oktyabrın 27-də saat 16 radələrində Bərdə rayonunun Qarayusifli kəndinin ağır artilleriyadan atəşə tutulması nəticəsində xəsarət almış daha bir dinc sakin müalicə olunduğu xəstəxanada aldığı xəsarətlər səbəbindən vəfat etmiş, bununla da 2020-ci il oktyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş cinayətlər nəticəsində həlak olanların sayı 5-ə çatmışdır.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilməklə zərərçəkmiş şəxslərin siyahısının dəqiqləşdirilməsi üzrə işlər aparılır.

# 2020/2021-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında” 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** 2020/2021-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abasov Hüseynağa Hüsaməddin oğlu
Abbaslı Aliyə Fariz qızı
Abbaszadə Nuray Xasay qızı
Abdullayev Hüseyn Yaşar oğlu
Abdullayev Vüsal Əliyeviç
Abdullayeva Şəfa Cəsarət qızı
Abuzərli Rəna Nazim qızı
Ağakişiyev Məhəmməd Rəsul oğlu
Ağazadə Pərvanə Fayiq qızı
Alışzadə Röyalə İlqar qızı
Allahverdiyev Nüsrət Ramil oğlu
Atakişiyev Əlosman Seymur oğlu
Babayeva Fidan Namiq qızı
Bağırov Siyavuş Mehdi oğlu
Baxışova Şəbnəm Sakit qızı
Bayramlı Elçin Rövşən oğlu
Bəşirova Aişə Həbib qızı
Bulud Uğur Seyran oğlu
Bürcəliyev Səbuhi Məlikəjdər oğlu
Cabbarlı Nərmin Sidqi qızı
Cəfərova Aytən Musa qızı
Çələbiyev Ayxan Elxan oğlu
Dadaşeva Aysel Etibar qızı
Dünyamalıyev Zeynal Hafiz oğlu
Əhmədova Fatimə Rza qızı
Əhmədzadə Davud Raci oğlu
Əhmədzadə Elmir Asif oğlu
Əliyev Həsənbala Fuad oğlu
Əliyev Tərlan Mehman oğlu
Əliyev Yusif Hüseyn oğlu
Əliyeva Fəzilə Samir qızı
Əliyeva Fidan Faiq qızı
Əmirova Aytac Rakif qızı
Əsədli Şəfa Zahir qızı
Əsgərli Zeynəb Ramil qızı
Əsgərova Şənay Zaur qızı
Əzimli Xətai Xanoğlan oğlu
Əzimzadə Rüstəm Eyvaz oğlu
Əzizov Məhəmməd Mehman oğlu
Hacıyeva Röya Rauf qızı
Həsənov Nəriman Pərviz oğlu
Həsənova Zümrüd Raciyevna
Hüseynquliyev İlham Əlövsət oğlu
Hüseynli Elxan Namiq oğlu
Hüseynli Pərizad Nizami qızı
Hüseynov Fərid Mehman oğlu
Hüseynov İsmayıl Kamil oğlu
Hüseynov Səbuhi Ramiq oğlu
Hüseynov Ümid Şövqi oğlu
Hüseynova Nuranə Rafiq qızı
Xəlilov Cavidan Mayıl oğlu
İbrahimov Rafiq Elşən oğlu
İlyaslı İlyas Zöhrab oğlu
İsmayılov Elmir Fuad oğlu
İsmayılov Famil Zaur oğlu
İsmayılov Rüfət Rəşad oğlu
İsmayılzadə Əhməd Səlim oğlu
İsmayılzadə Mirənvər Nail oğlu
İsparova Ləman Rizvan qızı
İsrafilov Araz Rəfael oğlu
Kazımova Nəzrin Adil qızı
Kərimli Aydan Cəsarət qızı
Kərimli Əziz İlham oğlu
Qadiyeva Günay Telman qızı
Qallacov Məhəmməd Şamil oğlu
Qarayev Mətin Vüqar oğlu
Qardaşəliyeva İlahə Şahgül qızı
Quliyeva Günel İlqar qızı
Quliyeva Sücahət Taleh qızı
Quluyev Əli Həsən oğlu
Lalayev Fərid Cəmil oğlu
Məlikov Anar Şaiq oğlu
Məmmədov Elvin Vəli oğlu
Məmmədova Aytac Səxavət qızı
Məmmədova Məhin Kamran qızı
Məmmədzadə Azadə Zaur qızı
Məsimov İsmayıl Cahangir oğlu
Mikayıl Zadə Aslan Samir oğlu
Miraləm Nərgiz Elşad qızı
Muxtərov Əli Natiq oğlu
Muradov Oruc Vaqif oğlu
Mustafazadə Murad Nadir oğlu
Namazov Rəvan Əbülfət oğlu
Nəbili Oktay Sübhi oğlu
Nəzərov Aqil Elnur oğlu
Nuri Nahid Natiq oğlu
Orucov Əlövsət Əli oğlu
Orucova Balaqız Anar qızı
Paşayeva Səba Gəray qızı
Peşəkərova Pərvanə Sədayqızı
Ramazanlı Azər Maarif oğlu
Rəfiyeva Nəzrin Bənamil qızı
Rzalı Cəmilə Tərlan qızı
Salamova Hədiqə Vüqar qızı
Sayılov Allahverdi Pənah oğlu
Şahbazzadə Zərifə Şəhriyar qızı
Şərifova Mahirə Vahid qızı
Tağıyev Cavidan Ayaz oğlu
Tərişli Fidan Əfqan qızı
Vəliyeva Kifayət Vüqar qızı
Yusifova Aynur İsaxan qızı
Yusifzadə Cəvahir Əfəndi qızı.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 oktyabr 2020-ci il*

---

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Loqopedik xidmət haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2002-ci il 29 aprel tarixli 73 nömrəli, “Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısının və evdə təhsilin təşkili Qaydalarının təsdiq edilməsi barədə” 2002-ci il 10 may tarixli 77 nömrəli, “Xüsusi təhsil müəssisələri haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2002-ci il 10 may tarixli 78 nömrəli, “Reabilitasiya mərkəzləri haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2002-ci il 29 may tarixli 85 nömrəli və “Sağlamlıq imkanları məhdud şəxslər üçün məktəbəqədər xüsusi təhsil müəssisələri haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2004-cü il 4 mart tarixli 24 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 aprel tarixli 73 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4 (II kitab), maddə 214; 2018, № 10, maddə 2173) ilə təsdiq edilmiş “Loqopedik xidmət haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. II bölmə üzrə:

1.1.1. 1-ci hissənin birinci abzasının ikinci cümləsində (hər dörd halda) “pozğunluqları” sözü “pozuntuları” sözü ilə əvəz edilsin;

1.1.2. 4-cü hissənin dördüncü, altıncı və yeddinci abzaslarında “pozğunluqları” sözü “pozuntuları” sözü ilə əvəz edilsin;

1.1.3. 5-ci hissənin ikinci abzasının ikinci cümləsində “pozğunluqları” sözü “pozuntuları” sözü ilə əvəz edilsin;

1.1.4. 7-ci hissənin birinci və ikinci abzaslarında “pozğunluqları” sözü “pozuntuları” sözü ilə əvəz edilsin;

1.1.5. 8-ci hissədə “pozğunluqları” sözü “pozuntuları” sözü ilə əvəz edilsin;

1.2. III bölmənin 2-ci hissəsində “pozğunluqları” sözü “pozuntuları” sözü ilə əvəz edilsin;

1.3. həmin Əsasnaməyə 3 nömrəli Əlavə – “Loqopedik xidmət göstərilmiş şifahi və yazılı nitqində qüsurları olan uşaqların sayı haqqında Hesabat”ın cədvəlində (hər beş halda) “pozğunluqları” sözü “pozuntuları” sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 may tarixli 77 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 314; 2010, № 3, maddə 264; 2015, № 12, maddə 1581; 2020, № 2, maddə 216, № 8, maddə 1126) ilə təsdiq edilmiş “Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısı və evdə təhsilin təşkili Qaydaları”nın II bölməsinin 3-cü hissəsində “qüsurlu” sözü “pozuntusu olan” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 may tarixli 78 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 315; 2005, № 3, maddə 255; 2007, № 2, maddə 185; 2009, № 10, maddə 857; 2017, № 4, maddə 629, № 10, maddə 1910, № 12 (II kitab), maddə 2518; 2018, № 5, maddə 1150, № 11, maddə 2458; 2020, № 2, maddə 216) ilə təsdiq edilmiş “Xüsusi təhsil müəssisələri haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 10-cu, 13-cü və 15-ci hissələrdə “qüsurları” sözü “pozuntuları” sözü ilə əvəz edilsin;

3.2. 16-cı hissədə “qüsurlarının, həmin qüsurlarla” sözləri “pozuntularının, həmin pozuntularla” sözləri ilə əvəz edilsin;

3.3. 19-cu hissədə “qüsurlarının” sözü “pozuntularının” sözü ilə əvəz edilsin;

3.4. 31-ci hissənin ikinci cümləsində “qüsurların” sözü “pozuntuların” sözü ilə əvəz edilsin;

3.5. 35-ci hissədə “qüsurları” sözündən sonra “(pozuntuları)” sözü əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 may tarixli 85 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 322; 2018, № 10, maddə 2173; 2019, № 7, maddə 1319) ilə təsdiq edilmiş “Reabilitasiya mərkəzləri haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.6-cı bənddə “qüsurları” sözü “pozuntuları” sözü ilə əvəz edilsin;

4.2. 9.2-ci bənddə “qüsuru” sözü “pozuntu” sözü ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 4 mart tarixli 24 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 191; 2007, № 2, maddə 185; 2008, № 2, maddə 130; 2009, № 10, maddə 857; 2012, № 3, maddə 255; 2017, № 10, maddə 1912; 2018, № 5, maddə 1149, № 11, maddə 2458) ilə təsdiq edilmiş “Sağlamlıq imkanları məhdud şəxslər üçün məktəbəqədər xüsusi təhsil müəssisələri haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

5.1. 8-ci hissənin onuncu abzasında “qüsurlu” sözü “pozuntusu olan” sözləri ilə əvəz edilsin;

5.2. 12-ci hissənin birinci abzasında “qüsurlu” sözü “pozuntusu olan” sözləri ilə əvəz edilsin;

5.3. 17-ci hissənin ikinci cümləsində “Qüsurlarla” sözündən sonra “(pozuntularla)” sözü əlavə edilsin;

5.4. 20-ci hissədə “qüsurlarını” sözündən sonra “(pozuntularını)” sözü əlavə edilsin;

5.5. 32-ci hissənin “c” bəndinin birinci abzasında “qüsurlu” sözü “pozuntusu olan” sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 26 oktyabr 2020-ci il*

---

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 745, № 10, maddə 969, № 12, maddələr 1241, 1245; 2012, № 3, maddə 257, № 4, maddə 399, № 6, maddələr 633, 634, № 12, maddə 1346; 2013, № 6, maddə 775, № 9, maddə 1130; 2014, № 1, maddə 72, № 2, maddə 214, № 6, maddə 751, № 7, maddə 907, № 9, maddə 1120; 2015, № 3, maddə 336, № 6, maddə 807, № 8, maddə 966, № 10, maddələr 1226, 1229, № 12, maddə 1571; 2016, № 1, maddə 176, № 2 (II kitab), maddə 373, № 3, maddə 622, № 5, maddə 957, № 6, maddə 1209, № 10, maddə 1723, № 11, maddə 1919; 2017, № 2, maddələr 285, 302, 319, № 6, maddələr 1223, 1226; 2018, № 11, maddələr 2429, 2456, № 12 (II kitab), maddələr 2739, 2759; 2019, № 11, maddə 1853; 2020, № 3, maddə 368, № 7, maddə 980) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın “Ümumi təhsil müəssisələri (ibtidai, ümumi orta və tam orta ümumtəhsil məktəbləri, ümumtəhsil internat məktəbləri, inteqrasiya təlimli internat tipli təhsil müəssisələri, xüsusi məktəblər və xüsusi internat məktəbləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəbləri, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün müəssisələr, istedadlı şagirdlər üçün məktəblər, gimnaziyalar, liseylər və digər müəssisələr)” bölməsinə aşağıdakı məzmunda 63-67-ci hissələr əlavə edilsin:

“63. Gəncə şəhər fizika, riyaziyyat və informatika təmayüllü lisey

64. Quba rayonu fizika, riyaziyyat və informatika təmayüllü lisey

65. Şirvan şəhər kimya-biologiya təmayüllü lisey

66. Şəki şəhər kimya-biologiya təmayüllü lisey

67. Şəmkir rayonu kimya-biologiya təmayüllü lisey”.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 26 oktyabr 2020-ci il*

**Birinci vitse-prezident**
**Mehriban ƏLİYEVA**



# Bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Trend İnformasiya Agentliyinə müsahibə verib

- **Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik. Bu, sadəcə, hərbi uğur deyil. Bu, tarixi ədalətin bərpasıdır, çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır.**
- **Mən xalqın öz Prezidenti ətrafında necə sıx birləşdiyini, dövlət başçısının ümumi məqsəd naminə, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi naminə birləşməyə çağırışını gənclərimizin necə qətiyyətlə və mərdliklə qəbul etmələrini görürəm.**
- **Azərbaycan xalqı ilə həmrəy olan, ona dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən dünyadakı bütün dostlarımıza minnətdaram.**
- **Azərbaycan xalqı öz Prezidentinə inanır və əmindir ki, Prezident nəyi necə, nə vaxt etmək lazım olduğunu bilir. Buna görə də biz bütün hərəkətlərimizdə və fəaliyyətimizdə həmişəkindən daha çox həmrəyik.**
- **Gəncə, Mingəçevir, Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Goranboy, Naftalan və digər yaşayış məntəqələrinin dinc əhalisinə edilən hücumlar Ermənistanın Azərbaycana qarşı məkrli siyasətini açıq ifşa edir.**
- **Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa və Azərbaycanın mülki əhalisinə qarşı vəhşicəsinə qəddarlığı kəskin pisləməyə çağırıram.**

AZƏRTAC müsahibəni təqdim edir.

– *Hər vaxtınız xeyir, hörmətli Mehriban xanım. İlk növbədə, Azərbaycanın bir sıra şəhərlərinin və yaşayış məntəqələrinin işğaldan azad edilməsi münasibətilə Sizi öz adımızdan və oxucularımızın adından təbrik etmək istərdim.*

– Bütün xalqımızı bu əlamətdar hadisələr münasibətilə təbrik edirəm. Demək olar ki, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Bizim əsgərlər və zabitlər döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Onlar uğurlu əməliyyatlar keçirərək, bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar. Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik. Bu, sadəcə, hərbi uğur deyil. Bu, tarixi ədalətin bərpasıdır, çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır.

Mübaliğəsiz demək olar ki, bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır. Bizim birgə qələbələrimizin tarixini!

Mən xalqın öz Prezidenti ətrafında necə sıx birləşdiyini, dövlət başçısının ümumi məqsəd naminə, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi naminə birləşməyə çağırışını gənclərimizin necə qətiyyətlə və mərdliklə qəbul etmələrini görürəm.

– *Sizin söylədiyiniz hər bir kəlmə xalqımızın istəyi ilə həmahəngdir və əməllərdə, hərəkətlərdə misli görünməmiş fəallıq doğurur. Sizin müraciətinizdən dərhal sonra həmvətənlərimizin erməni yalanlarını və böhtanlarını ifşa etməyə yönəlmiş səyləri buna parlaq sübutdur.*

– İnformasiya məkanında fəallıq göstərmək barədə çağırışıma qoşulan hər kəsə təşəkkür etmək istəyirəm. Biz daim yadda saxlamalıyıq ki, qarşıdurma təkcə bilavasitə döyüş əməliyyatları bölgəsini deyil, həm də informasiya məkanını əhatə edir. Mən bizim gənclərimizin, vətəndaşlarımızın erməni təbliğatının feyklərini necə ifşa etdiklərini, erməni təcavüzü haqqında həqiqəti bütün mümkün platformalarda beynəlxalq ictimaiyyətə necə çatdırdıqlarını görürəm. Onların haqq səsi tarixin saxtalaşdırılması hallarını aşkar etməyə və tamamilə əsassız, açıq-aydın yalan, təhrikçi materialların yayılmasının qarşısını almağa kömək edir.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkür edirəm, onların obyektivliyi və yüksək peşəkarlığı sayəsində bugünkü Azərbaycan reallıqlarını dünyaya çatdırmaq mümkün olur.

Əllərinə bayraq götürərək təcavüzkara etirazlarını bildirən və Ermənistanın işğalçı mahiyyətini beynəlxalq ictimaiyyətə göstərən xaricdə yaşayan soydaşlarımızı qeyd etməmək mümkün deyil. Azərbaycan xalqı ilə həmrəy olan, ona dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən dünyadakı bütün dostlarımıza minnətdaram.

Bu gün biz hamımız cəbhədə baş verənlər barədə fikirlərlə yaşayırıq. Azərbaycan xalqı öz Prezidentinə inanır və əmindir ki, Prezident nəyi necə, nə vaxt etmək lazım olduğunu bilir. Buna görə də biz bütün hərəkətlərimizdə və fəaliyyətimizdə həmişəkindən daha çox həmrəyik. Şübhəsiz, bizim əsgərlərimiz bu dəstəyi hiss edirlər. Bilirlər ki, onların arxasında bütün Azərbaycan xalqı dayanır.

– *Mehriban xanım, Siz bəyanatlarınızda dəfələrlə qeyd etdiyiniz kimi, hətta düşmənin mülki əhaliyə qarşı vəhşicəsinə təxribatlarına baxmayaraq, xalqımız inanılmaz ruh yüksəkliyi və mərdlik nümayiş etdirir.*

– Təəssüf ki, erməni tərəfi məqsədyönlü şəkildə nəinki beynəlxalq konvensiyaların tələblərini pozur, hətta əxlaq normalarını tapdalayır.

Gəncə, Mingəçevir, Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Goranboy, Naftalan və digər yaşayış məntəqələrinin dinc əhalisinə edilən hücumlar Ermənistanın Azərbaycana qarşı məkrli siyasətini açıq ifşa edir. Dəfn mərasimi zamanı qəbiristanlığı necə atəşə tutmaq olardı? Gecə vaxtı, sakinlər yatarkən Gəncə şəhərini raket atəşinə necə məruz qoymaq olardı? Günahsız mülki şəxslər, uşaqlar, qadınlar həlak olub. Bu, insanlığa qarşı cinayətdir, bu, terrorizmdir. Bütün bunlar birmənalı şəkildə göstərir ki, Yerevanın sülhdə marağı yoxdur, o, yalnız münaqişənin eskalasiyasını, onun regional qarşıdurmaya çevrilməsini arzu edir.

Lakin Ermənistanın heç bir alçaq əməli, – nə siyasi platformaya əsaslanan iyrənc provokasiyaları, nə informasiya məkanında məkrli avantüraları, nə dinc vətəndaşlara vəhşicəsinə hücumları, – heç nə Azərbaycan xalqının iradəsini sındıra bilməz. Birlik, həmrəylik, bir-birinin dərdinə şərik olmaq və qarşılıqlı dəstək nümayişi müəyyən mənada heç kəsin heç vaxt bizim iradəmizi və Vətənimizi işğaldan azad etmək istəyimizi sındıra bilməyəcəyinə dair Azərbaycan xalqının ismarıcıdır.

Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa və Azərbaycanın mülki əhalisinə qarşı vəhşicəsinə qəddarlığı kəskin pisləməyə çağırıram. Yerevan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzü dayandırmağa çağıran qətnamələrinə etinasızlığa son qoymalıdır.

Azərbaycan dövlətinin heç vaxt başqalarının torpaqlarında gözü olmayıb. Biz dinc əhaliyə hücum etmirik. Bizim işimiz haqq işidir. Bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad edir. Bizim əsgərlər qəhrəmanlıq və igidlik göstərərək Vətən uğrunda şərəflə döyüşür, öz adlarını Azərbaycanın tarixinə yazırlar. Mən bütün yaralıların tezliklə sağalmalarını arzu edirəm. Həlak olmuş hərbi qulluqçuların ailələrinə, doğmalarına dərin hüznlə başsağlığı verirəm. Vətən naminə şəhid olmuş igid övladlarımıza Allah rəhmət eləsin. Onların qanı yerdə qalmayacaq və qalmır. Düşmənə layiq olduğu cavab verilir.

Mənim tapşırığımla Heydər Əliyev Fondu həlak olanların ailələrinə lazımi kömək göstərir. Yaralı əsgərlərin sağalması və normal həyata qayıtması üçün nə mümkündürsə edilir. Bu gün bizim bütün yaralı əsgər və zabitlər tezliklə ayağa qalxmaq və Vətən uğrunda ədalətli mübarizəni davam etdirmək üçün yenidən döyüş əməliyyatları zonasına yola düşmək istəyirlər. Budur Azərbaycan xalqının ruh yüksəkliyi və vətənpərvərliyi.

– *Mehriban xanım, Siz bu günlərdə xalqımızın qeyri-adi birliyini qeyd etdiniz. Koronavirus pandemiyasına qarşı mübarizədə bir növ şüara çevrilmiş "Biz birlikdə güclüyük!" cümləsini hamımız xatırlayırıq. Demək olarmı ki, bu gün həmin cümlə xüsusi məna kəsb edir?*

– Bu, şübhəsiz belədir. Biz yalnız birliyimizi qorumaqla və Prezidentin ətrafında sıx birləşməklə bu ilin yadda qalacağı bütün çağırışları və çətinlikləri dəf edə bilərik.

Siz koronavirus pandemiyasını xatırlatdınız və mən bu məsələyə bir qədər ətraflı toxunmaq istərdim. Biz bu günədək vaxtında və hərtərəfli düşünülmüş tədbirlər sayəsində dünyanın bir çox ölkələrinin üzləşdiyi faciəli ssenaridən xilas ola bilmişik. Ekspertlərin fikrincə, bizim ölkəmiz epidemiyanın ilk və olduqca təhlükəli mərhələsini ən az sayda itki ilə başa vurmuş dövlətlər sırasındadır. Biz epidemiya ilə mübarizənin bütün aspektlərini koordinasiya edən peşəkar komanda yaratmağa, zəruri texniki və insan resurslarını birləşdirməyə müvəffəq olduq. Tətbiq edilmiş karantin tədbirləri koronavirusun yayılma sürətini azaltmağa kömək etdi. Biz birlikdə Vətənimizi bu xəstəliyin təhlükəli surətdə yayılmasından qoruya bildik.

Təəssüf ki, çoxsaylı ölkələrə və xalqlara bu qədər bəla və iztirab gətirmiş virusa hələ də qalib gəlmək mümkün olmayıb. O, hələ də ciddi təhlükə mənbəyidir, bütün dünyada pisləşməkdə olan statistika buna sübutdur. Pandemiyaya qarşı müharibə hələ davam edir. Avropa dövlətlərinin çoxunda çoxsaylı məhdudiyyətlər yenidən qüvvəyə minir.

Təəssüf ki, bizim ölkəmiz də istisna deyil. Məlumdur ki, son günlərdə yoluxanların sayının artması müşahidə olunur, təhsil müəssisələrində, ictimai nəqliyyatda yenidən bəzi məhdudiyyətlər tətbiq edilib.

Mən sizin hər birinizi koronavirusun təhlükəli olduğunu unutmamağa, aylarla riayət etdiyimiz elementar qaydaları gözləməyə, məsafəyə riayət etməyə, həqiqətən real zərurət olmadığı halda insanların kütləvi şəkildə toplaşdığı yerlərə getməməyə çağırıram. Bizə yaxşı məlum olan bütün bu qaydalar yoluxma riskini azaltmağa və deməli, bizi və yaxınlarımızı xəstəlikdən qorumağa kömək edər. Biz yaşlı nəslə həmişə xüsusi qayğı və hörmətlə yanaşırıq. Pandemiyanın birinci mərhələsi dövründə biz onları qayğı ilə qoruduq. Əminəm ki, indiki şəraitdə biz daha diqqətli olacağıq.

Bu gün, ordumuz öz tarixi missiyasını davam etdirdiyi bir vaxtda dövlətimizin, o cümlədən səhiyyə sisteminin üzərinə düşən yükü maksimum azaltmaq lazımdır. İndi bütün resursların bizim xilaskarlıq əməliyyatı üzərində cəmləşməsi müstəsna əhəmiyyət kəsb edir. Biz arxa cəbhədə öz sağlamlığımızın qeydinə qalmaqla, sayıqlıq və intizam nümayiş etdirməklə, eyni zamanda, ön cəbhədəki əsgərlərimizə kömək edir və onları qoruyuruq.

Əminəm ki, biz bu vəzifənin öhdəsindən gələcəyik və bir daha sübut edəcəyik ki, gücümüz birlikdədir!

# YUNESKO virtual formatda Qlobal Təhsil Görüşünün növbədənkənar sessiyasını təşkil edib




## Təhsil naziri sessiyada Ermənistanın ölkəmizə təcavüzündən danışıb




Oktyabrın 22-də Təhsil naziri Emin Əmrullayev YUNESKO tərəfindən virtual formatda təşkil olunmuş Qlobal Təhsil Görüşünün növbədənkənar sessiyasında iştirak edib.

COVID-19 pandemiyasının təhsil sahəsinə təsiri mövzusuna həsr olunan tədbirdə YUNESKO-nun baş direktoru Odri Azulay, BMT-nin Baş katibi Antonio Qutyereş, bir sıra ölkələrin dövlət və hökumət başçıları, Təhsil nazirləri iştirak edib.

Tədbir zamanı Emin Əmrullayev pandemiya dövründə ölkəmizdə təhsilin davamlılığının təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər barədə iştirakçılara məlumat verib. Eyni zamanda Azərbaycanda yeni dərs ilindən tədris prosesinin hibrid - birbaşa və onlayn formada təşkil edildiyi və məktəblilərin sağlamlığının qorunması üçün lazımi addımların atıldığı vurğulanıb.

Təhsil naziri Azərbaycanın müxtəlif şəhər və rayonlarında dinc əhaliyə Ermənistanın raket zərbələri endirməsi nəticəsində 6 nəfər məktəblinin həlak olması, 17 nəfər məktəblinin xəsarət alması və ölkəmizin müxtəlif bölgələrində yerləşən 40-a qədər təhsil müəssisəsinə zərərin dəyməsi ilə bağlı məlumatı tədbir iştirakçılarının diqqətinə çatdırıb.

# Təhsil naziri "Clarivate Analytics" şirkətinin nümayəndə heyəti ilə görüşüb



Oktyabrın 29-da Təhsil naziri Emin Əmrullayev ilə ABŞ-ın "Clarivate Analytics" şirkətinin nümayəndə heyəti arasında onlayn formatda görüş keçirilib.

Görüş zamanı Təhsil Nazirliyi ilə "Clarivate Analytics" arasında əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib. Eyni zamanda 2018-ci ildən etibarən elmi-tədqiqat işlərinin ümumi çəkisinə və nəşr aktivliyinin artım dinamikasına görə ölkəmizin Cənubi Qafqaz regionu ölkələri arasında ilk pillədə qərarlaşması təqdirəlayiq hal kimi qeyd olunub.

Tərəflər ölkəmizin elmi-tədqiqat fəaliyyəti ilə bağlı digər keyfiyyət göstəricilərinin inkişaf etdirilməsinin vacibliyi ətrafında müzakirələr apararaq növbəti dövr ərzində qarşıya qoyulan hədəflər və bu istiqamətdə görüləcək işlər barədə razılığa gəliblər.

Təhsil naziri Emin Əmrullayev Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın dinc əhalisinə qarşı təcavüzü, müxtəlif şəhər və rayonlara raket zərbələri endirməsi nəticəsində 9 nəfər məktəblinin həlak olması, 16 nəfər məktəblinin xəsarət alması və 50-dək təhsil müəssisəsinə zərər dəyməsi ilə bağlı iştirakçılara məlumat verib.

# Vətəndaşların qəbulu dekabrın 1-dək dayandırılır

Ölkə ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq, Təhsil Nazirliyinin Vətəndaşların Qəbulu Mərkəzi 2020-ci il dekabrın 1-dək fəaliyyətini dayandırır.

Təhsil sahəsində dövlət xidmətlərinin göstərilməsini təmin etmək üçün bu dövr ərzində müraciətlər 146-1 Telefon Məlumat Mərkəzi vasitəsilə cavablandırılacaq. Vətəndaşlar həmçinin Nazirliyin rəsmi *office@edu.gov.az* elektron poçt ünvanına müraciət edə və elektron resurslarında *(www.edu.gov.az; www.ict.edu.az)* təqdim edilən müxtəlif e-xidmətlərdən yararlana bilərlər.

Rəsmi məlumatları Təhsil Nazirliyinin internet saytı *(www.edu.gov.az)* və sosial şəbəkələrdəki səhifələrindən izləmək tövsiyə edilir.

# Dağlıq Qarabağ və ətraf rayonlarda yerləşən məktəbdənkənar təhsil müəssisələri

Düşmən tərəfindən işğal olunan Dağlıq Qarabağ və ətraf rayonlarda 17 idman, 23 yaradıcılıq profilli olmaqla 40 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərib. Belə ki, Ağdam rayonunda 5, Cəbrayıl rayonunda 5, Füzuli rayonunda 5, Kəlbəcər rayonunda 4, Laçın rayonunda 5, Qubadlı rayonunda 5, Şuşa rayonunda 4, Xocavənd rayonunda 2, Zəngilan rayonunda isə 5 məktəbdənkənar təhsil müəssisəsi yerləşib. İşğal nəticəsində qeyd olunan ərazilərdə yerləşən 8 məktəbdənkənar təhsil müəssisəsinin fəaliyyəti tamamilə dayandırılıb, digərləri müvəqqəti olaraq müxtəlif bölgələrə köçürülüb. Hazırda işğal səbəbindən müvəqqəti olaraq digər bölgələrə köçürülən məktəbdənkənar təhsil müəssisələri aşağıdakılardır:

- Ağdam rayon Uşaq-Gənclər İnkişaf Mərkəzi;
- Ağdam rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbi;
- Füzuli rayon Uşaq-Gənclər İnkişaf Mərkəzi;
- Füzuli rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbi;
- Laçın rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbi;
- Laçın rayon Uşaq-Gənclər İnkişaf Mərkəzi;
- Şuşa rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbi;
- Şuşa rayon Uşaq-Gənclər İnkişaf Mərkəzi;
- Qubadlı rayon Uşaq-Gənclər İnkişaf Mərkəzi;
- Qubadlı rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbi;
- Zəngilan rayon Uşaq-Gənclər İnkişaf Mərkəzi;
- Zəngilan rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbi;
- Xocavənd rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbi;
- Cəbrayıl rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbi;
- Xocalı rayon Uşaq-Gənclər İnkişaf Mərkəzi.




Qeyd edək ki, 1999-cu ildə Xocalıdan olan məcburi köçkünlərin kompakt yaşadığı Goranboy rayonunun Ağcakənd qəsəbəsində Xocalı rayon Uşaq Yaradıcılıq Mərkəzi yaradılıb. 2017-ci ildə Təhsil Nazirliyinin müvafiq əmri ilə məktəbdənkənar təhsil müəssisələrinin şəbəkəsinin rasionallaşdırılması əsasən, ölkə üzrə olduğu kimi, işğal altında olan rayonlar üzrə də birləşmə nəticəsində yeni müəssisələr yaradılıb.

# "QARABAĞın məşhur müəllimləri"




## Təhsil Nazirliyi yeni layihəyə start verib

Təhsil Nazirliyi "Qarabağın məşhur müəllimləri" adlı yeni layihəyə start verib. Layihə çərçivəsində Qarabağda doğulan və vaxtilə pedaqoji fəaliyyətlə məşğul olan tanınmış şəxslər barədə məlumatlar təqdim olunacaq.

Layihənin məqsədi müzəffər Azərbaycan Ordusunun qələbə xəbərlərinə sevindiyimiz bu günlərdə Qarabağın məşhur müəllimlərini yad etməkdir.

Həmidə xanım Cavanşir-Məmmədquluzadə 1873-cü ildə Şuşa qəzasının Kəhrizli kəndində zəmanəsinin görkəmli maarifçi ziyalısı Əhməd bəyin ocağında dünyaya gəlib. Azərbaycanın ilk maarifçi qadınlarındandır. Cəlil Məmmədquluzadənin həyat yoldaşı olub.

Tarix Həmidə xanım Cavanşiri böyük xeyriyyəçi və cəfakeş insan kimi yaddaşlara həkk edib. Həmidə xanım 1912-ci ildə Kəhrizlidə öz vəsaiti hesabına məktəb açıb və özü də burada dərs deyib. O, xatirələrində yazırdı ki, "Kənddə oğlanlarla qızların bir yerdə oxuduğu məktəb açmaq atamın mənə vəsiyyəti idi".







Süleyman Sani Axundov keçən əsrin əvvəllərində Azərbaycan xalqının mədəni inkişafında müstəsna rolu olan şəxslərdən biri, görkəmli yazıçı, nasir və maarif xadimi olub. O, 3 oktyabr 1875-ci ildə Şuşa şəhərində anadan olub. 1885-1894-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil alıb. Təhsilini bitirdikdən sonra III dərəcəli rus-tatar məktəbinə müəllim təyin edilib. Ömrünün sonuna kimi pedaqoji fəaliyyətlə məşğul olub.

Süleyman Sani Axundov 1906-cı ildə Azərbaycan müəllimlərinin I qurultayında iştirak edib.1920-1921-ci illərdə Qarabağ vilayətinin maarif şöbəsinin müdiri, 1922-1930-cu illərdə Bakıda məktəb müdiri vəzifələrində çalışıb.

# Məktəblilər terror hədəfində

## İçində təsəlli axtardığımız qanlı olayların bitəcəyi gün uzaqda deyil




Ruhiyyə DAŞSALAHLI

### "Çoxlu şirin xəyalları vardı"

Arturun adı artıq Azərbaycana məlum idi. Bir həftə idi ki, hamı gözünü xəstəxananın reanimasiya otağına dikib bir xoş xəbər, yaralı məktəblinin oyanacağı anı gözləyirdi. Reanimasiyada həyatla ölüm arasında çırpınan məktəbli balanın ölə biləcəyini kimsə ağlına gətirmək istəmirdi. Ancaq fələk işini insanların gözləntilərinə görə qurmur, demək. Artur Mayakov daldığı o dərin yuxudan heç oyanmayaraq bu dünyaya əbədi olaraq vida etdi.

Oktyabrın 17-dən xəstəxanadaydı. Gəncə şəhərinə raket atılması nəticəsində xəsarət alanlardanıydı. Gəncə şəhəri K.D.Uşinski adına 29 nömrəli tam orta məktəbin 7-ci sinif şagirdiydi. Onun ölümü ilə məktəbin terror qurbanı olan şagirdlərinin sayı dördə yüksəldi. Nigar Əsgərova, Məryəm və Orxan Xəlillilərdən sonra Artur Mayakov... 2007-ci il təvəllüdlü Artur stasionar qaydada müalicə olunduğu xəstəxanada əbədiyyətə qovuşdu.

Gəncə şəhər K.D.Uşinski adına 29 nömrəli tam orta məktəbin Tərbiyə işləri üzrə direktor müavini Vüsalə Məmmədova Arturdan danışarkən ilk ağlına gələn atasız-anasız böyüyən məktəbli üçün nənəsinin verdiyi mücadilə oldu: "Artur məktəbimizin yaxşı şagirdlərindən biriydi. Anası rusdur. Moskvada yaşayır. Artur nənəsi və bibisi ilə böyüyürdü. Artur Gəncədə yaşayır, burada oxuyurdu. Məktəbimizin yaxşı şagirdlərindən idi. İdmana gedirdi. Yaşıdları kimi, normal uşaqlıq keçirirdi. Çoxlu planları, qurduğu şirin xəyalları vardı".

### Nar dərib yeyəcəkdi...

Xəyalları olan, gələcək üçün planlar quran tək Artur deyildi ki. Orxanın da arzuları vardı.

Oktyabrın 24-də səhər saatlarında Ermənistan silahlı qüvvələrinin Goranboy və Tərtər rayonlarını raket və ağır artilleriyadan atəşə tutması nəticəsində daha bir Orxan həyatını itirdi. Növbəti erməni raketi Tərtər rayonunun Kəbirli kəndində ona tuş gəldi. Nar yığıb yemək istəyən bir uşaq, bir məktəbli daha bir erməni terroruna qurban getdi. 16 yaşlı Orxan düşmən təcavüzü nəticəsində Azərbaycanın terror qurbanı olan səkkizinci məktəblisi oldu.

2004-cü il təvəllüdlü Orxan İsmayılzadə Xoruzlu kənd sakiniydi. Tərtərin Xoruzlu kənd A.Məmmədov adına tam orta məktəbində 10-cu sinifdə təhsil alırdı. Məktəbin direktoru, Orxanın tarix müəllimi Rafiq Səfərov şagirdini itirdiyinə görə təəssüflənir: "Orxan səliqəli, tərbiyəli, nümunəvi bir uşaq idi. Danışdırmasan, danışmazdı. Ondan böyük qardaşı Murad ötən tədris ilində məktəbimizi bitirdi. Orxan təmkinliydi, sakit idi. Çox əxlaqlı uşağıydı".

Direktor R.Səfərov Kəbirli, Bayandur və Xoruzlu kəndlərindəki uşaqların təhsil aldığı Xoruzlu A.Məmmədov adına kənd tam orta məktəbinin 450 şagirdindən biri olan Orxanın orada dərs deyən 50 müəllimin hər birinin yaddaşında məhz səliqə-səhmanı, tərbiyəsi, gözəl xasiyyəti ilə qaldığını deyir: "Xoruzludan Kəbirliyə gəlibmiş o gün. Kəbirlidə əmisi qızı yaşayır. Onun yaşadığı məhəllədə xurma bağına gediblər. Bağda iki cərgə nar ağacı da əkilib. Əmisi qızının ailəsi, onun qayınanası ilə birlikdə o da nar yığmağa gedib. 4-5 nəfər olublar. Həmin əraziyə düşən raket nəticəsində aldığı xəsarətlərdən Orxan öldü, əmisi qızının ailəsindəki hər kəs müxtəlif dərəcəli xəsarətlər aldı".

### Terrorun körpə qurbanları

Aysu İsgəndərova da erməni silahlı qüvvələrinin ağır artilleriyadan istifadə edilməklə öldürdüyü uşaqlardan biri oldu. Bərdə rayonunun Qarayusifli kənd tam orta məktəbində ötən tədris ilində məktəbəhazırlıq keçmişdi. Artıq II sinif şagirdi idi. Ailəsinin ilk övladı, nənə-babasının ilk nəvəsiydi. Hər şirin anın ilkini yaşatdığı kimi, acının da ilkini yaşatdı kiçik Aysu. Su kimi həyatlarına axdı, Ay kimi göylərə çəkilib əlçatmaz oldu ailəsi üçün. Qarayusifli kənd tam orta məktəbin direktoru Maisə Quliyevanın sözlərinə görə, istiqanlı, dilli-dilavər Aysu istiqanlılığı, mehribanlığı ilə hamıya özünü sevdirmişdi: "Çox mehriban qız idi. Ailənin ilk nəvəsiydi. Ona görə nənəsi və babası onu lap çox sevirdilər. Onun ölümü ilə barışa bilmələri çətin olacaq. Həm ilk nəvə, həm də mehriban, şirin bir qız idi. Allah ermənilərə lənət eləsin. Hətta daşürəkli biri kəndə girsə, ürəyi ağrıyar. Təkcə bir erməni hücumunun nəticəsi olaraq kənddə 5 evdə matəm var. Ölənlər arasında uşaqların olması isə daha sarsıdıcıdır".

Beləliklə, bir qızcığaz arzuların nə olduğunu hələ tam anlamadan, hədəfini müəyyən etmədən özü hədəfə çevrildi. Həyətdə oynayarkən, cəmi 7 yaşındaykən uşaq dünyasından ayırdılar onu.

Traktorçu atası Rövşən İsgəndərov erməni raketləri düşəndə bu bəlanın onun həyətinin tən ortasına düşəcəyini hiss edirmiş kimi traktorunun istiqamətini geriyə - evinə sarı döndərdi. Tələsdi ki, tezcə evinə çatsın. Kimə nə olduğunu görmək istəyirdi. Başıalovlu gəlib çatanda artıq qızının biri üçün çox gec idi. Balasının bağrına basılacaq canı belə qalmamışdı. Atanın körpə balaları, övladı üçün əlindən heç nə gəlmədiyini anlaması nə qədər acıverici, nə qədər sarsıdıcıdır, onu bir yaşayan bilər. Rövşən də məhz bunu yaşadı. Körpə qızını, ilk övladını yerdə qanlar içində tapan ata hələ də özünə gələ bilməyib.

Aysuya hərflərdən sözlər düzəldib, onlardan uzun, mürəkkəb cümlələr qurmağı öyrədəcək kitablarının üzü açılmadan, hələ səhifələri vərəqlənmədən körpə bədəni qan içində dünyanı tərk etdi. Üstəlik, erməni terrorizminin hədəfində onun kimi çoxlu uşaqların olduğu bir vaxtda. Aysu kimi, onun balaca bacısı, 3 yaşlı Tahirə İsgəndərova kimi.

Tahirə də yaralananlardan biridir. O gün bacısını öldürən raket onun üçün də bir qəlpə "hədiyyə" gətirmişdi. Anası 3 yaşlı Tahirənin ağrılarnı azaltmağa, yaralarını sarımağa çalışır. Terror qurbanı bacıların anası Mətanət İsgəndərova bu gün nəyə ağlayıb, nəyə sevinəcəyini bilməyəcək duruma düşüb: "Birdən səs gəldi, qonşumuz Ehtiramın evinə qəlpələr yağdı. Həmin vaxt həyətdə oynayan uşaqlar qan içində idi".

### Təsəllimiz də var

Terrora qurban gedənlərin var, Vətən! Yaşı hələ kiçik olsa da, böyük davanın 8 balaca qurbanı oldu onlar da. Hələ nə yaxşı ki, raketlərlərlə insanlara tələ quran ölümün hədəfindən yayındığı vaxtlar da oldu.

"Yaxşı ki", - deyib içində təsəlli axtardığımız qanlı olayların bitəcəyi gün isə uzaqda deyil. O gün gələndə bu günlərə dair ən böyük təsəllimiz axan günahsız qanların yerdə qalmadığını bilməyimiz olacaq!

# Terror qurbanları arasında müəllim də var

Ermənistan Silahlı Qüvvələri oktyabrın 28-də saat 13 radələrində Bərdədə ikinci dəfə terror aktı törədib. Bərdə şəhərinin dinc sakinlərinin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalarından istifadə edilməklə zərbələr nəticəsində 21 nəfər dünyasını dəyişib, 70-ə yaxın şəxs müxtəlif dərəcəli bədən xəsarətləri ilə xəstəxanalara yerləşdirilib.

Ölənlər arasında müəllim də var. Belə ki, Bərdə şəhər T.İsmayılov adına 1 nömrəli tam orta məktəbin fiziki tərbiyə müəllimi 1988-ci il təvəllüdlü Fuad İsmayılov həlak olub. Fuad İsmayılov subay idi.



Xatırladaq ki, sentyabrın 27-dən indiyə kimi 90 dinc sakin erməni terrorunun qurbanı olub.







# Ermənistan silahlı qüvvələri Ağdamda məktəb binasını atəşə tutub

Oktyabrın 26-da səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam rayonu Qaradağlı kənd tam orta məktəbi atəşə tutulub. Nəticədə məktəbə ciddi ziyan dəyib.

Qeyd edək ki, Qaradağlı kənd tam orta məktəbində 400 şagird təhsil alır, 43 müəllim pedaqoji fəaliyyətlə məşğuldur.

Bu günədək düşmən təcavüzü nəticəsində 40-dan çox məktəbə ziyan dəyib.

Sentyabrın 27-dən başlayaraq Ermənistanın silahlı qüvvələrinin ölkəmizə qarşı növbəti təxribatçılıq əməlləri cavabsız qalmır. Müzəffər Azərbaycan Ordusunun işğalçılara qarşı bir-birindən uğurlu əks-əməliyyatları milli birliyimizin sarsılmazlığının, Vətənimizin ərazi bütövlüyünün bərpası, 30 ildir ki, bizi gözləyən torpaqlarımızın işğaldan azad olunması üzrə səylərimizin bariz nümunəsidir. Bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun uğurlu əməliyyatları ölkəmizin hüdudlarını aşaraq xarici ölkələrdə yaşayan gənclərimiz tərəfindən də diqqətlə izlənilir. Bu günlərdə onların da üzərinə mühüm vəzifə düşür. Bu mənada, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində xaricdə təhsil alan, məzun olan tələbələrimiz də Azərbaycanın haqq işini dünya ictimaiyyətinə çatdırmaqla Vətən müharibəsində öz töhfələrini verməkdədirlər. Budəfəki yazımızda Amerika Birləşmiş Ştatları və İtaliyada yaşayan Dövlət Proqramı təqaüdçülərindən Çilanay Səfərli və Fərid Abbasovun adıçəkilən ölkələrdə erməni təcavüzünə qarşı fəaliyyətlərinə işıq salırıq.



# "Biz çox qürurluyuq"

# Dövlət Proqramı təqaüdçüləri rəşadətli Ordumuzun qələbə xəbərlərinə sevinir

## "Bu qürurlu günləri yaşatdığı üçün ordumuzun və bu işdə əməyi olan hər kəsin qarşısında baş əyirəm"

**Çilanay Səfərli.** Hazırda Amerikanın paytaxtı Vaşinqton şəhərində yerləşən Corc Vaşinqton Universitetində "İnsan və şirkət inkişafı" proqramında doktorantura təhsili alır və "Azərbaycanın dövlət qurumlarında qadınlarda lider kimliyinin inkişafı" adlı dissertasiya işi yazır.




- Hazırda xalqımızın və ölkəmizin üzləşdiyi çətin, amma bir o qədər də şərəfli və tarixi günlərdə Amerikada yaşayan bir azərbaycanlı olaraq öz üzərimə düşən vəzifəni şərəflə yerinə yetirməyə çalışıram. Biz Vətəndən çox uzaq olsaq da, ürəyimiz daima onunladır və bu günlərdə xalqımızla birgə sevinib, birgə üzülürük. Öncə onu qeyd edim ki, Amerikada yaşadığım son 6 il ərzində həmişə Azərbaycanın, onun tarixinin və mədəniyyətinin təbliği ilə məşğul olmuşam. Elə bu səbəbdən 2015-ci ildə universitetimizdə digər həmvətənlərimlə birlikdə ilk Azərbaycanlı Tələbələr Assosiasiyasını yaratmışıq. Bu assosiasiya bizə universitetin bütün tədbirlərində, eləcə də Vaşinqton ərazisində keçirilən tədbirlərdə Azərbaycanı layiqincə təbliğ etməyə kömək edir. İndiyə qədər keçirilən bir çox tədbirlərdə universitet rəhbərliyi və digər rəsmi qurumların rəhbərləri iştirak edib. Bu, iştirakçılara Azərbaycan, onun tarixi və mədəniyyəti barədə məlumatlar əldə etmək fürsəti verib. Təbii ki, bu tədbirlərin hər birində Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonun düşmən tərəfindən işğalı və Ermənistanın beynəlxalq hüququ necə pozduğu vurğulanıb.

Qarabağla bağlı hadisələr bu ilin yay ayından kəskinləşdikdən sonra isə bu fəaliyyətimizi daha da artırmışıq. Digər icma nümayəndələrimizlə birlikdə bu ilin iyun ayından 2 dəfə Ermənistanın ABŞ-dakı səfirliyi qarşısında keçirilən dinc etiraz yürüşlərində iştirak etmiş, Azərbaycandakı mövcud vəziyyətlə bağlı Amerika senatorlarını, konqresmenlərini məlumatlandırmaq məqsədi ilə onlara U.S. Azeris Network (USAN) tərəfindən hazırlanan məktubları göndərmiş, əsasən erməni mediasının yaydığı yalan məlumatların qarşısının alınması üçün yerli kanallara zənglər etmiş və emaillər göndərmişəm. Ağ Evin qarşısında keçirilən dinc aksiyamızda isə Azərbaycan həqiqətlərini Vaşinqtonda yaşayan əhaliyə çatdırmaq üçün çıxış etmişəm. Yalan məlumatlarla amerikalıları özlərinin məsum olduğuna inandırmaq istəyən ermənilərin əsassız iddialarına qarşı həmişə sərt mövqeyimi göstərmişəm. Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı Qətnamələrinin bu günə qədər yerinə yetirilmədiyini ətrafımda olan bütün amerikalıların diqqətinə çatdırmışam. Eləcə də Ermənistanın monoetnik siyasət yürütdüyünü, nə Ermənistan ərazisində, nə də ki, işğal olunmuş ərazilərimizdə bir nəfər belə olsa azərbaycanlının yaşamadığı haqda onları məlumatlandırmışam. Ermənistandan fərqli olaraq, Azərbaycanda hazırda çoxlu sayda erməninin yaşadığını həmişə qeyd edirəm.

Bir dissertant kimi həmişə Dağlıq Qarabağ müharibəsi barədə məlumat verərkən gətirdiyim arqumentlərin tarixi və sosio-mədəni reallıqlara əsaslanmasına xüsusi önəm verirəm. Sosial mediada həqiqətləri yanlış təqdim edən və manipulyasiya edən, vəziyyəti daha da gərginləşdirən qərəzli xəbərlərdən, ritorikadan fərqli olaraq burada yaşayan insanları həmişə münaqişə barədə fikir yürütməmişdən əvvəl həqiqəti yoxlamağa, münaqişənin köklərini beynəlxalq mənbələrə istinad edərək araşdırmağa çağırıram.

Biz bu mübarizədə haqlı tərəfik və son qarış torpağımızı geri qaytarana qədər istər cəbhədə, istər informasiya müharibəsində sonuna qədər mübarizə aparmaq hər bir azərbaycanlının borcudur. Bu prosesdə tam qələbə qazanana qədər yorulmaq olmaz. Çünki Qarabağ bizim yalnız qan yaddaşımız deyil, Qarabağ həm də bizim milli kimliyimizin ən həssas yeridir və bu milli kimliyimizin, özgüvənimizin tam bərpası üçün itirilmiş torpaqlarımızı düşməndən azad etməliyik, necə ki, edirik. Bizə bu qürurlu günləri yaşatdığı üçün ordumuzun və bu işdə əməyi olan hər kəsin qarşısında baş əyirəm.

## "İtaliya prezidentinə, parlamentə, baş nazirə, xarici işlər nazirinə öz bəyanatımızı ünvanlamışıq"

**Fərid Abbasov.** İtaliyanın La Sapiensa Universitetində təhsil alıb. 2012-2019-cu illərdə Azərbaycan - İtaliya Gənclər Birliyinin sədri olub. 2019-cu ilin mayında Diaspora Komitəsinin sədri Fuad Muradovun iştirakı ilə keçirilən Azərbaycan - İtaliya Koordinasiya Şurasının təsis toplantısında Roma üzrə əlaqələndirici seçilib. Daha sonra İtaliya - Azərbaycan Birliyi təsis olunub. F.Abbasov Birliyin sədridir. İtaliya - Azərbaycan birliyi koordinasiya şurasının tərkibində İtaliyada fəaliyyət göstərən 4 təşkilat var.



- Azərbaycanı tanıtdırmaq, təbliğatını aparmaq üçün indiyə kimi İtaliya universitetləri ilə çalışmışıq. Bu çərçivədə Xocalı ilə bağlı hər il müxtəlif formalı fləşmoblar, mitinqlər həyata keçirilib.

Tovuz hadisələri zamanı İtaliya parlamentinin qarşısında mitinq keçirdik. Mitinqdə mindən artıq iştirakçı var idi. Oktyabrın 15-də isə yenə erməni təcavüzünə qarşı parlamentin qarşısında böyük etiraz aksiyası həyata keçirildi. Bu aksiya digərlərindən onunla fərqli idi ki, aksiyada İtaliya universitetlərinin professorları, yerli sakinlər də iştirak edirdi. Onlar bizə dəstək olmağa gəlmişdi. Aksiyada "Napoli - Bakı" Assosiasiyasının prezidenti Cuzeppe Kanilia, İtaliya-Azərbaycan Ticarət Palatasının prezidenti xanım Manuela Traldi, professorlar, İtaliya vətəndaşları və mən də çıxış etdik. Biz cəbhəyanı bölgələrdə erməni silahlı qüvvələrinin dinc sakinlərə atəş açması və onların şəhid olması ilə bağlı etirazımızı bildirdik. İtaliya prezidentinə, parlamentə, baş nazirə, xarici işlər nazirinə öz bəyanatımızı ünvanlamışıq. Azərbaycan-İtaliya Birliyi olaraq buradakı müxtəlif beynəlxalq təşkilatlara, QHT-lərə öz mövqeyimizi çatdırmışıq. Həmçinin İtaliya KİV-də Ermənistanın ölkəmizə qarşı davam edən işğalçılıq siyasəti ilə bağlı məqalələrlə çıxış etmişəm. "Roma kapitoliya" radiosuna müsahibə vermişəm.

Hazırda yeni bir dinc aksiyaya hazırlaşırıq. Bu dəfə şəhid olan sakinlərimizi İtaliyanın Venetsiya, Milan, Turin, Messina, Boloniya kimi digər böyük şəhərlərində aksiyalarla, fələşmoblarla yad etməyi nəzərdə tuturuq.

Bir azərbaycanlı gənc olaraq cəbhədən gələn sevindirici xəbərlər, torpaqlarmızın işğaldan azad olunması bizi qürurlandırır. Daim sosial şəbəkələrdə, Ali Baş Komandanın tvitter səhifəsindən yeniliklər gözləyirik. Rəsmi qurumların məlumatlarını izləyirik. Həmin məlumatları italyan dilində ictimaiyyətə çatdırmağa çalışırıq. Bu tarixi günləri fərəh hissi ilə yaşayırıq. Biz çox qürurluyuq.

Xaricdə yaşayan bir gənc olaraq bu qələbələri digər çoxsaylı dostlarımla İtaliya cəmiyyətinə paylaşanda onlar da Azərbaycanın regionda söz sahibi, aparıcı ölkə olduğunu qeyd edirlər. Biz də bununla qürur duyur və fərəh hissi keçiririk.

**Oruc MUSTAFAYEV**

# Qubadlımızda övladlarımızı vətənpərvər ruhda böyüdüb tərbiyə edəcəyik

## Qubadlı təhsil işçiləri doğma torpaqlarında dərs deyəcəkləri günü səbirsizliklə gözləyir




Artıq bir aydan çoxdur ki, ölkəmizdə Vətən müharibəsi davam edir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu bu müddət ərzində ermənilər tərəfindən işğal olunmuş tarixi Azərbaycan torpaqlarının bir hissəsini-4 şəhər, 3 qəsəbə, 200-ə yaxın kənd və bir neçə strateji yüksəklikləri düşmən tapdağından azad edib. Azad olunan torpaqlarımızdan biri də Qubadlı şəhəridir. Ölkə başçısı İlham Əliyevin oktyabrın 25-də Qubadlı şəhərinin azad olunması haqqında verdiyi şad xəbər hər bir Azərbaycan vətəndaşına sevinc dolu anlar yaşatdı. 27 il Vətən həsrəti ilə yaşayan qubadlılar isə ikiqat sevindilər. Çünki onlar dədə-baba torpaqlarına, yurd-yuvalarına artıq qayıda biləcəklər. Belə bir sevinc dolu günlərdə biz də Qubadlı rayon təhsil işçiləri ilə söhbətləşdik, onların hansı hisslər keçirdiklərini öyrəndik.

### "Əminik ki, bütün torpaqlarımız işğaldan azad olunacaq"

*Qubadlı rayon Çərəli kənd tam orta məktəbin direktoru, "Tərəqqi" medallı Sədaqət Hüseynova* bildirir ki, Qubadlının işğaldan azad olunması həyatının ən xoş xəbəri oldu: "Mən bir Azərbaycan müəllimi olaraq Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevlə qürur duyuram. Bu gün Ali Baş Komandanın və Şanlı Azərbaycan Ordusunun qalibiyyəti ilə məcburi köçkün adından azad olduq. Əminik ki, bütün torpaqlarımız işğaldan azad olunacaq və biz öz doğma torpaqlarımızda daha yüksək nailiyyətlər əldə etmək üçün var gücümüzlə çalışacağıq. Həsrətlə gözlədiyimiz doğma torpağa qovuşacağımız günü səbirsizliklə gözləyirəm".

### "Qubadlısız keçirdiyim 27 il mənə çox ağır gəlib"

*Qubadlı rayon Fərcan kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi, "Əməkdar müəllim" Ədalət Əsədov* torpaqlarımızın azad olunduğu günə həmişə inandığını və bu günü həsrətlə gözlədiyini deyir: "Sevinc hisslərimi sözlə ifadə etməkdə çox çətinlik çəkirəm. Qubadlısız keçirdiyim 27 il mənə çox ağır gəlib. Bizə bu xoş günləri yaşatdığına görə Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm.

Göz açıb böyüdüyüm rayona qayıdış başlayanda öndə gedənlərdən biri olacağam. Təbii ki, əsas işim vətəndaş yetişdirmək, yaddaşı təzələmək, erməni vandalizmini unutmamaq, kökə, milli dəyərlərə malik şagirdlər tərbiyə etmək olacaqdır. Qubadlıda da Azərbaycanın digər rayonları kimi böyük abadlıq, quruculuq işləri həyata keçiriləcək. Bir vətəndaş kimi bu işlərdə də ölkə başçımıza dəstək verməyi, infrastrukturun yenidən qurulmasında yaxından iştirak etməyi düşünürəm".

### "Əmək fəaliyyətinə başladığım məktəb bizi gözləyir"

*Qubadlı rayonu Dəmirçilər kənd tam orta məktəbin direktoru Şahbaz Muradov* da Qubadlıya qayıtmaq ümidlərinin heç vaxt itmədiyini deyir: "Məsələnin sülh yolu ilə həllini 27 il gözlədik. Sonda isə işğalçılar yenə də təxribata əl ataraq Ordumuzun əks-hücumu qarşısında aciz dayandılar.

Xalqımız Prezidentin ətrafında sıx birləşərək Vətən müharibəsinə qalxdı. Artıq torpaqlarımız işğaldan azad olunmağa başladı. Cənab Prezident İlham Əliyevin daxili və xarici siyasəti nəticəsində iqtisadiyyatımızın inkişafı, ordumuzun gücləndirilməsi böyük Qələbədən xəbər verirdi.

Artıq doğma yurdum Qubadlı işğaldan azad edilmişdir. Sevincimizin hədd-hüdudu yoxdur. Əmək fəaliyyətinə başladığım Dəmirçilər kəndi, məktəb bizi gözləyir. Tezliklə doğma yurdlarımıza qayıdacağıq. Yeni-yeni evlər, mədəniyyət ocaqları, məktəblər tikib yaradacağıq, övladlarımızı vətənpərvər ruhda böyüdüb tərbiyə edəcəyik.

Prezidentimizin apardığı siyasət beynəlxalq qanunlara əsaslanır, xalqımızın iradəsini ifadə edir, buna görə də ədalətli qələbə bizimlə olacaq".

### "Qubadlıya qayıdandan sonra da müqəddəs peşəmi davam etdirəcəyəm"

*Qubadlı rayon Xocahan kənd tam orta məktəbinin riyaziyyat müəllimi, "Əməkdar" müəllim Sabir İsmayılov* ömrünü təhsilə həsr edib: "Özümü xoşbəxt hesab edirəm. Ona görə ki, igid vətənpərvər oğlanlarımızın tərbiyəsində mənim də payım var. Doğma Qubadlıma qayıdacağım üçün çox sevinirəm. Bu xoş günləri bizə bəxş edən əziz Prezidentimizə, qüdrətli ordumuza minnətdarlığımı bildirirəm. Doğma Qubadlıya qayıdandan sonra da bu müqəddəs peşəni davam etdirəcəyəm".

### "Bu tarixi uğurların şagirdlərin yaddaşında əbədi qalması üçün əlimdən gələni edəcəyəm"

Məcburi köçkün düşərkən cəmi 4 yaşı olan *Qubadlı rayon Mahruzlu kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi Nərgiz Xəlilli* Qubadlını xəyalında tez-tez canlandırdığını bildirir. Ən böyük xəyalının doğma kəndlərində müəllim işləmək olduğunu da sözlərinə əlavə edən gənc müəllim həmin günlərə tezliklə çatacaqlarını deyir: "Xəyallarımda yaşayan 27 illik Qubadlı həsrəti məni qəfəsdə boğulan quş kimi hiss etdirirdi. Buna baxmayaraq Ali Baş Komandanımızın qətiyyətli mövqeyi məndə həmişə torpaqlarımızın azad olunacağına ümid yaradırdı. Torpaqlarımızın mühüm hissələrinin, həmçinin doğma yurdum Qubadlının işğaldan azad olunması bir daha onu sübut etdi ki, möhtərəm Prezidentimiz qüdrətli sərkərdə və qətiyyətli dövlət başçısıdır. Bu şərəfli və böyük güc tələb edən missiyada Prezidentimizə sonsuz uğurlar arzu edirəm. Söz verirəm ki, əldə etdiyimiz bu tarixi uğurlarımızın şagirdlərimizin yaddaşında əbədi qalması üçün əlimdən gələni edəcəyəm. Çünki bu şanlı tarixi qızıl hərflərlə Ali Baş Komandanımız və Müzəffər Ordumuz yazır".

**Niyazi RƏHİMOV**

---

# Biz Zəngilana qayıdırıq

## Zəngilanlı müəllim və şagirdlərin yurd həsrətinə son qoyuldu

Azərbaycan Ordusu! Bu gün bütün dünya sənin mərdliyindən, şücaətindən, igidliyindən və qəhrəmanlığından danışır. Bəli, qürurla söyləyə bilərik ki, bizim ən müasir silahlarla, texnika ilə təchiz edilmiş yenilməz və Müzəffər Ordumuz var. Vətən müharibəsi başlayandan Rəşadətli Ordumuz bizə hər gün qələbə sevinci yaşadır. Oktyabr ayı 27 il yurd həsrəti ilə yaşayan zəngilanlılar, eləcə də xalqımız üçün zəfər ayı oldu.

Zəngilan rayonu 4 nömrəli ümumi orta məktəbin direktoru Vüsalə Xaməmmədqızı Zəngilandan məcburi köçkün düşəndə 12 yaşı olduğunu bildirərək artıq tarixə qovuşan 27 illik Vətən həsrətindən danışdı.

- Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin başçılığı ilə Müzəffər Ordumuz zəfər yürüşü ilə Zəngilanı düşmən tapdağından azad etdi. 27 il yurd həsrəti ilə yaşayan zəngilanlıları və xalqımızı sevindirdi.

Zəngilanımda həyat yenidən bərpa olunacaq, infrastruktur qurulacaq, evlərdən körpə səsi eşidiləcək, uşaq gülüşü duyulacaq. Sevincimi sözlə ifadə etmək mümkün deyil. Bu sevinci bizə, işğaldan azad olunan hər bir rayonun, kəndin sakinlərinə yaşadan Ali Baş Komandan və əsgərlərimizdir. Prezident İlham Əliyev hər gün yeni-yeni torpaqların azad edilməsi xəbərini xalqa sevinclə çatdırır. Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və prinsipiallığı sayəsində Vətən müharibəsində Azərbaycan Ordusunun qələbəsi son qarış torpağımız düşmən tapdağından azad edilənə qədər davam edəcək. Biz qalib gələcəyik! Qarabağ bizimdir. Qarabağ Azərbaycandır!

### Zəfər bayrağımız Zəngilanda dalğalanır

*Zəngilan rayonu 13 nömrəli tam orta məktəbin müəllimi Mələk Məmmədova:* - "Ali Baş Komandan cənab İlham Əliyev xalqımıza müraciət edərək qələbə xəbərini çatdırdı. Bəli, bu xəbəri eşidən kimi uşaqdan böyüyə hər birimiz sevincimizdən gözlərimiz doldu. Elə bir həmin an dünyanı bizə verdilər. Mən həmin xoşbəxt anları sözlə ifadə edə bilmirəm. Zəngilan azadlığa qovuşdu. Zəfər bayrağımız artıq canımızdan çox sevdiyimiz Zəngilanda dalğalanır.

27 ildən sonra elimizə - obamıza qayıdırıq, özü də qalib kimi.

### Bizi qələbəyə aparan yol

*Zəngilan rayon 14 nömrəli tam orta məktəbin müəllimi Dildar Kərimova* da böyüyüb boya-başa çatdığı Zəngilan haqqında danışaraq bildirdi ki, bu gün 28 ildir erməni işğalçıları tərəfindən işğal olunmuş torpaqlarımız ölkə başçımız, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuz tərəfindən azad edilir.

Biz Zəngilan rayonundan olan məcburi köçkün müəllimlər də torpaqlarımızın işğaldan azad olunmasına ürəkdən sevinir, öz yurd-yuvamızda dərs deyəcəyimiz günləri səbirsizliklə gözləyirik. Var olsun Ali Baş Komandanımız cənab İlham Əliyev! Yaşasın bizə zəfərlər daddıran Şanlı Azərbaycan Ordusu!

### "Babamın, nənəmin sevincdən hönkür-hönkür ağlaması heç vaxt yadımdan çıxmayacaq"

Zəngilan məktəbliləri də işğaldan azad olunmuş rayonlarında dərs keçəcəkləri günü səbirsizliklə gözləyirlər. *Zəngilan rayon 1 nömrəli tam orta məktəbin IX sinif şagirdi Nəzrin Quliyeva:* - "Uzun həsrətdən sonra bu gün Zəngilan haqqında yazmaq və danışmaq mənim üçün çox sevincli və qürurverici haldır. Çünki Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuz Zəngilanımızı düşmən tapdağından azad edib. Sevincimizdən ürəyimiz köksümüzə sığmır. Ata - babalarımızın iz qoyduğu, nənələrimizin nağıl söylədiyi, analarımızın layla çaldığı torpaqlarımız azad olundu!

Düzdür, mən Zəngilanı görməsəm də, onun haqqında nənə və babalarımızdan, valideynlərimdən eşitmişəm.

Biz rayonumuzun azad edilməsi xəbərini səbirsizliklə gözləyirdik. Nəhayət, o gün gəlib çatdı. Həmin an hər birimizin gözlərindən sevinc yaşları axırdı. Babamın, nənəmin sevincdən hönkür-hönkür ağlaması heç vaxt yadımdan çıxmayacaq.

Biz o torpaqda sevinc və qürur hissi ilə addımlayacaq, zümrüd meşələri, şəfalı yaylaqları, güllü-çiçəkli çəmənləri görəcəyik.

İndi şəhidlərimizin də ruhu şaddır. İnşallah, Zəngilanım işğaldan azad olunduğu kimi, tezliklə digər işğal altında olan torpaqlarımız da Rəşadətli Ordumuz tərəfindən azad ediləcək və Qarabağımızda üçrəngli bayrağımız dalğalanacaq".

### Xoş gördük Zəngilanım...

*Zəngilan rayon 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi Nəzrin Mehtizadə :* - "Ali Baş Komandanımızın rəhbərliyi ilə Şanlı Ordumuzun 27 sentyabrdan başlayan zəfər yürüşü hamımızın sevincinə səbəb oldu. 30 ilə yaxın zaman kəsiyində işğal altında olan torpaqlarımız yaramaz məxluqlardan azad olunduqca bu xalqın vətənpərvər qızı olaraq daha da qürurlanıram.

Əsgər və zabitlərimiz sübut edirlər ki, Azərbaycan xalqı mərd, mübariz, qəhrəman və yenilməz xalqdır. Valideynlərim mən yaşda olanda vətəndən vətənə məcburi köçkün gəliblər. Zəngilan haqda nənə-babalardan, müəllimlərdən, valideynlərimdən eşitmişəm, kitablardan, qəzet və jurnallardan oxumuşam, yuxularımda görmüşəm. Heç görmədiyim ata-baba yurduma çox möhkəm tellərlə, qəlbən bağlıyam. Bu gün çox sevincliyəm, həddən çox!!!

Ən sevincli anım igid əsgərlərimizin bayrağımızı Zəngilan şəhərinə qürurla sancmasını görməyim oldu.

Hər kəs sevinc göz yaşlarını silərək Ali Baş Komandanımıza və Ordumuza uğurlar dilədi. Uğurların davamlı olsun, Azərbaycan Əsgəri!

Ən böyük arzum hüquqşünas olmaq və Zəngilanda hüquqşünas kimi çalışmaqdır".

### Azərbaycanımızın igid oğulları tarix yazırlar

*Zəngilan rayonu 9 nömrəli tam orta məktəbin XI sinif şagirdi Fəqan Paşayev:* - "Mən Zəngilanı görməsəm də həmişə böyüklərdən, oranı görənlərdən soruşurdum. Onlar da dərin bir kədərlə, həsrətlə doğma torpaqlarımızdan mənə danışırdılar. Böyüklərdən eşitdiklərimi həmişə yuxularımda, xəyallarımda canlandırırdım, bir anlığa sanki oranı ziyarət edirdim.

Biz Azərbaycan igidlərinin qəhrəmanlıqlarını hər zaman kitablarından oxuyurduq. Amma hazırda Azərbaycan qəhrəmanlarının göstərdikləri igidlikləri, qəhrəmanlıqlarını öz gözlərimizlə görürük, canlı şahidi oluruq. Azərbaycanımızın igid oğulları hazırda qızıl hərflərlə tarix yazırlar. Biz bu tarixi zəfərə əsgər oğullarımızın qanı bahasına nail oluruq. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

**Rəşad ZİYADOV**

Bu gün Azərbaycanın ürəyi Qarabağla çırpınır. Hər bir azərbaycanlı axşam Qarabağla yatıb, səhər Qarabağla açır gözünü. Əli silah tutan silaha sarılıb, dili söz tutan da şeirə, sənətə. Müəllimlər də cəmiyyətdən geri qalmayıb. Sinifdən birbaş səngərə gedən müəllimlər kimi, söz səngərində yerini alanlar da çoxdur. Axı, söhbər müəllimdən gedir. Söz ola, müəllim kənarda qala?!

Söz cəbhəsində yerini alanlardan, sadəcə biridir Ülviyyə müəllim. Əvvəlcə sözü tanındı, sonra özü. Kimya müəllimi kimi tanıyanlar olsa da, şeir yazdığı, sadəcə ən yaxınında olan bir neçə nəfərə bəlliydi. Amma indi hamı ondan danışır. Daha doğrusu, onun qələmə aldığı misralardan.



Payız, səndən bir ricam var,
Çox tələsmə...
Qoy geciksin boranlı qar!
Vətənimin yad əllərdə hələ əsir torpaqları,
Döyüşlərdə əsgəri var...
Tanrı olsun onlara yar.
Sən həlim ol, asta tərpən,
Leysan olub yağma birdən.
Bir az bəslə buludları ətəyində
Üşüməsin əsgərimin əli silah tətiyində.
Xəsislik et, gözəl payız,
Torpağıma su qatanda...
Yüngül olsun əsgərimin çəkmələri
Zirvələrə can atanda.
Dumanını ahəstə çək
Naxışları nəmli payız
Vətənimin nər həsrətli dağlarına...
Hərarətin qüvvət versin
Alnı açıq zirvələrə bayraq sancan
İgidlərin qollarına
Payız, səndən son ricam var
Gözü yolda olanlara
İgidlərdən xoş xəbərlər
Gətir nübar
Qoy, bu payız müjdə versin mərd xalqıma
Qələbədən, zəfərdən bar!

# Söz səngərinin kimya müəllimi

**Ruhiyyə DAŞSALAHLI**

## Dualar şeirə, şeir mahnıya dönüb dildən-dilə dolaşdı

### Bayrağa bürünən Azərbaycandan, Qarabağa köklənən xalqdan ilhamlandı

Qarışıq hisslər yaşadığı, kədərlənib ağladığı, gah kövrəlib, gah da qürurlandığı günlərdən birinin sonunda öz oğlunun bir istəyi göynətdi ana ürəyini. Qucağı öz oğlunu, misralara düzdüyü sözləri isə balasından nigaran anaların dilindən səslənən duaya çevrilib soyuq səngərdə böyük anasına - VƏTƏNinə keşik çəkən oğulları qızdırdı: "General-mayor Polad Həşimovun həlak olması mənə çox təsir etmişdi. Bir neçə gün özümə gələ bilməmişdim. Sonra baş verənlər, ölkəmizdə müşahidə edilən böyük ruh yüksəkliyi, bayraqlara bürünən küçələrimiz məndə böyük iz buraxırdı. O gün səfərbərliyə cəlb edilən yaxınlarımın analarıyla görüşmüşdüm. Onlarla söhbətin təsirindən çıxmamışdım. Həmin gün Prezidentin çıxışını da dinlədim. Axşama tərəf yağış başladı, hava soyuqlaşdı. Axşam oğlum yanıma gəlib "Qucaqla məni, üşüyürəm", - dedi. Onda ağlıma əsgərlər gəldi, analarını düşündüm. Mənim oğlum yanımdadı, isti evində üşüyür, oğlumun yanında mən varam, onu isidirəm, deyə düşündüm. Evindən, isti yatağından uzaqda, soyuq səngərdə olan əsgərlər ağlımdan çıxmadı. O gecə yata bilmədim. Yağış onları isladacaq, torpağı isladacaq. Ayaqları palçıq olacaq. O palçıq çəkmələrini daha da ağırlaşdıracaq. Bu düşüncələr səhərə kimi ağlımdan çıxmadı. Səhərə yaxın bu şeiri yazdım. Həmişə yazdığım şeirləri bacıma, bir neçə yaxınıma oxuyur, fikirlərini soruşurdum. Bu dəfə buna vaxtım olmadı. Məktəbə getməliydim. Ona görə heç kimin fikrini soruşmadan paylaşdım. Ancaq şeirin müəllifi olduğumu yazmağa utandım. Dərsə girəndə telefonu müəllimlər otağında qoyuram. Ona görə də 3 saat ərzində nə baş verdiyindən xəbərim olmadı. Telefonuma baxanda zəng dalınca zəng gəldiyini, sosial şəbəkədə şeirimin necə sürətlə yayıldığını gördüm".

İlk 2 gün ərzində paylaşımlar, səsləndirmələr davam edib. Şeirini qiraətçi Xəzər Süleymanlı, müğənni Ədalət Şükürov səsləndirib. Bu minvalla, şeiri eşidən sevib, görən əzbərləyib, öyrənən söyləyib. İndi Ülviyyə müəllimin telefonunun yaddaşı şeirinin, sadəcə qiraət ustalarının yox, yüzlərlə insanın ifası ilə doludur: "Əslində, şeirin müəllifi olduğumu söyləmək fikrim yox idi. Bu da mənim vətənə borcumdur. Ürəyimdən qopanları dilə gətirmişdim və bu, hamının ürəyindən keçənlər olduğu üçün bir neçə saat içərisində sevilmiş, paylaşılmışdı. Buna görə ancaq xoşbəxt ola bilərdim və oldum da".

Ülviyyə müəllim ürəklərin sarı siminə toxunduğu şeirinin uğuruna sevindiyi günlərdə təəssüf doğuran təcrübə də qazanıb. Bir də onda görüb ki, şeiri onun şeiri olmaqdan çıxır, misralarını oğurlamağa cəhd edənlər artır: "Məlum oldu ki, sosial şəbəkələrdə şeirimin qol-qanadını sındırıb bəzi dəyişikliklər etməklə öz adlarına çıxanlar var. Məcbur olub şeirin müəllifi olduğumu elan etdim. Əmim oğlunun şeirimə klip çəkilməsi ilə bağlı təklifini də bu səbəbdən qəbul etdim. Hətta klipin süjetini də özüm verdim. Bayrağa bürünən küçələrimizdən, Prezidentimizin çıxışlarından təsirləndiyimi, məhz bu ab-havanın təsiri ilə o şeiri yazdığımı dedim. Şeirin məhz o görüntülərin fonunda səslənməsində israr etdim".

### Şeirə mahnılar bəstələndi

Beləliklə, şeir səsləndirildi. Sorağı arxa cəbhədən ön cəbhəyə, uşaqdan böyüyə yayıldı. Qısa müddətdə 50-dən çox ifa ortaya çıxdı. Özü də, sadəcə qiraət ustaları, ya da məşhur şəxslərin yox, sevən hər kəsin səsi ilə. Nəinki şeiri səsləndirənlər, hətta musiqi bəstələyənlər də oldu: "Musiqiçilər şeirə musiqi yazıb oxudular. Şeir ruhumdan qopub gələn düşüncələr idi. Silah götürüb döyüşə bilmirəm. Mən də bunu edə bilərəm. Səngərdəki əsgərlər üçün, vətənim üçün əlimdən gələni etmək istəyirəm".

### Qəhrəman kişinin yetirməsi

Ülviyyə Eyyubova vətən sevgisini, vətənə xidmət etməyin min bir yolu olduğunu ailəsindən - atası Qəhrəman kişidən öyrəndiyini deyir: "Atam həkim, anam tibb bacısıydı. Evimizə həkimə ehtiyacı olan hər adam gələ bilərdi və gəlirdi də. Yardımsevərliyi atam mənə lap körpəliyimdən aşılayıb. Öz peşə borcunu evimizdə də yerinə yetirir, tez-tez məni də ilk yardım işinə cəlb edirdi. Sonra müharibə başladı. Müharibə dövründə bir vətəndaşın üzərinə düşənləri məhz atamdan öyrəndim. Birinci Qarabağ savaşında mən hələ məktəbdə oxuyurdum. Şagirdlərim kimi mən də müharibəni uşaq ürəyimdə hiss etmişəm. Cəbhə bölgəsində yaşamırdıq, ancaq vətənim üçün əlimdən nəsə gələ biləcəyini mənə göstərən valideynlərim oldu. Mütəmadi olaraq cəbhəyə - əsgərlərə corab toxuyub göndərdiyimiz xatirələrim hələ təzədi, heç köhnəlməyib. Toxuduğum corablar mənə əsgərimi, vətənimi sevməyi, vətənimə necə xidmət edə biləcəyimi öyrətdi. Sonra ali məktəbə - Bakı Dövlət Universitetinə daxil oldum, müəllim oldum və təyinatla Qəbələnin Vəndam qəsəbəsindəki 1 nömrəli tam orta məktəbdə dərs deməyə başladım. 14 il Vəndamda, 2017-ci ildən sonra isə Bakıda işlədim. Anayam, 20 ilə yaxındır müəlliməm. Bu müddət ərzində atamdan öyrəndiklərimi həm övladlarıma, həm də şagirdlərimə aşılamağa çalışdım. Bundan sonra da əlimdən gəldiyi qədər bunu edəcəyəm".

### Onların gözlərində qəzəb yox, zəfər parıltısı görmək istəyirdim

Şeiri ilə tanıdığımız Ülviyyə Eyyubova müəllim kimi çoxdan tanınır. Laçın rayon 13 nömrəli tam orta məktəbin müəllimi kimi adı çoxlarına bəllidir. 2003-cü ildən kimya fənni üzrə dərs keçir. Hazırda Laçın rayonundakı 13 nömrəli tam orta məktəbdə və Bakı Modern Məktəbində müəllimlik fəaliyyəti göstərir. Özünün ifadəsi ilə desək, hər gün fərqli iki situasiyada sinfə girir. Düşdüyü situasiyaların təsiri altında çox şeir yazıb. Ancaq onları heç vaxt paylaşmayıb: "Bakı Modern Məktəbi ilə Laçın rayon məktəbində tam fərqli mühit, fərqli ovqat olur. Laçın məktəbində laçınlı müəllimlərin yanıqlı səsindən muğamlarımızı dinləyir, onların göz yaşını görürdüm. Mən hər gün bu göz yaşlarını silib, yanıqlı səsi dinləmişəm".

Ülviyyə müəllim deyir ki, artıq çətin günlər geridə qalıb. Azərbaycan əsgəri itirdiyimiz torpaqları geri qaytarır. Artıq müəllimlərin gözündə yaş, şagirdlərin üzündə qəzəb görmək məcburiyyəti də sona çatır: "Uzun illər müəllim yoldaşlarım kimi mən də şagirdlərimə torpaqlarımızın işğal tarixini əzbərlədirdim. Mən də bir müəllim kimi işğal günlərini soruşur, şagirdlərimə xatırlatmaq məcburiyyətində qalırdım. Başqasını bilmirəm, mənə utanc verirdi. Şagirdlərimizə zəfər tarixini öyrətmək varkən, işğal günlərini əzbərlətmək cansıxıcı idi. Bir müəllim kimi onların gözlərində qəzəb yox, zəfər parıltısı görmək istəyirdim. Nəhayət, o gün gəldi".

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6742, **Sifariş** 2553

**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu** tərəfindən 1977-ci ildə Məsimov Alqış Ümüdvar oğluna verilmiş B-I-002830 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 25 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Həsənova Aynur Eldar qızına verilmiş A-576149 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Talış kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Qəhrəmanov Yusif Nahid oğluna verilmiş A-429849 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Yüngül Sənaye Texnikumu** tərəfindən 1992-ci ildə Mordvinova Yelena Viktorovnaya verilmiş PT-I-093698 nömrəli diplom və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** Evdə fərdi təhsil məktəbi 2014-cü ildə bitirmiş Ulubəyli Leyla Niyazi qızına verilmiş A-343883 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Dilman kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Rəcəbli Ülvi Məhəmmədhadi oğluna verilmiş A-140139 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 7 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Əliyev Tahir Mövsüm oğluna verilmiş E-235876 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 5 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Hacıyeva Pərvin Vəlixan qızına verilmiş B-055675 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan MR** Sədərək rayon Qaraağac kənd tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Məmmədhəsənov Anar Elşad oğluna verilmiş A-592230 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 300 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Məmmədov Əziz Novruz oğluna verilmiş A-619647 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2019-cu ildə Qədimli Cavid Mehman oğluna verilmiş C-028185 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 12 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Yusifzadə Həsən Yusif oğluna verilmiş A-204521 nömrəli əsas orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Əlibəyqışlaq kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Əhmədov Emil Zal oğluna verilmiş A-463319 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Moranlı kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Hüseynzadə Zenfira Elçin qızına verilmiş A-572367 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan şəhər** 4 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Əliyeva Günel Mehman qızına verilmiş B-262197 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 11 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Xəndamlı Nəcəf Rüstəm oğluna verilmiş B-466708 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2015-ci ildə Poladlı Günel Tərlan qızına verilmiş A-065819 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2015-ci ildə İsgəndərov İsmayıl İsgəndər oğluna verilmiş A-080332 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** 1 nömrəli tam orta məktəbin VIII sinfini 1984-cü ildə bitirmiş Həşimova Aybəniz Qabil qızına verilmiş 664043 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qazıməmməd şəhər** 2 nömrəli orta məktəbin (indiki Hacıqabul şəhər 2 nömrəli tam orta məktəb) IX sinfini 2003-cü ildə bitirmiş İbrahimova Minarə Ramiz qızına verilmiş B-619781 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 221 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Bağırova Havaya verilmiş E-211938 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 125 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Cavadov Ruzi İbrahim oğluna verilmiş E-198343 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 25 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Əhmədov Aslan Mail oğluna verilmiş A-695908 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İlyas Əfəndiyev adına Elitar Gimnaziyanı** 2016-cı ildə bitirmiş Dursunov İsmayıl Aslan oğluna verilmiş A-496569 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İncəsənət İnstitutu** tərəfindən 1973-cü ildə Hüseynov Cavanşir Yusif oğluna verilmiş Э-211007 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** evdə fərdi təhsil məktəbini 2017-ci ildə bitirmiş Nəzərova Esmira Rasim qızına verilmiş E-023706 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Agentliyi** tərəfindən 2008-ci ildə Rəcəbov Namik Əhəd oğluna verilmiş 0002700 nömrəli ikinci mexanik sertifikatı və 008552 nömrəli əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Ə.Həsənov adına Plankənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Məlikova Elmira Telman qızına verilmiş B-077085 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin rəhbərliyi və kollektivi idarənin müdir müavini İlhamə Abdullayevaya qayınatası

**ƏLİ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

132-134 nömrəli təhsil kompleksinin kollektivi kompleksin məktəbəhazırlıq bölməsinin musiqi rəhbəri

**SEVİNC HACIYEVANIN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.

# Təhsil və koronavirus



## Müxtəlif ölkələrdə dərslər necə keçirilir?



Oruc MUSTAFAYEV

**Oktyabrın 19-dan koronavirus pandemiyasına yoluxma hallarının artması ilə əlaqədar Rusiya paytaxt məktəblərinin VI-XI sinif şagirdləri dərslərə distant formatda qayıdıblar. Bu müvəqqəti tədbir ibtidai məktəb şagirdləri ilə müqayisədə virus infeksiyasına tutulma riski yüksək olan yuxarı sinif şagirdlərinin sağlamlığını qorumağa kömək edəcək.**

**Məsafədən tədrisə qayıtmaq valideynlər arasında tədrisin bu formasının effektivliyi barədə çoxsaylı diskussiyalara yol açıb. Dünya ölkələrindəki məktəb sistemləri tədrisin bu formatının tətbiqində nə dərəcədə uğur qazana bilir?**

### Kanadada müəllim və şagirdlər təhsil formatından narazıdırlar

Kanadanın Ontario əyalətində bu ilki tədris ilində məktəblərə getmək məcburi deyil. Valideynlər uşaqlarının dərsə gedib-getməməsi və ən yaxşısı, evdən məşğul olması barədə qərar verirlər. İlk baxışdan yaxşı bir qərar kimi görünür. Amma heç də belə deyil...

Məktəblilərin əksəriyyəti evdə oturmağı və sinifdə oxuyanlarla eyni vaxtda tədrislə sinxron məşğul olmağı üstün tuturlar. Lakin texniki, təşkilati cəhətdən bu formatın reallaşması müəllim üçün mümkün deyil. Müəllimlər bu sistemdən məmnun qalmırlar. Onların sözlərinə görə, bütün sinif ya məktəbdə, ya da distant formatında oxuyarkən daha effektivdir. İki cəbhəyə bölünmək və hər kəsi izləmək asan deyil; təhsilin keyfiyyəti aşağı düşür.

Bir çox şagirdlər elektron təlimlə mübarizə aparırlar, çünki bu formatla tanış deyillər. Onlar məyusluq keçirir və dərslərlə məşğul olmağı dayandırırlar. Bundan əlavə, internetə çıxışı olmayan uşaqlar da var, onlayn dərslərdən kənarda qalırlar.

"Bəzi uşaqların texnoloji imkanları (müvafiq cihazlar) yoxdur, genişzolaqlı əlaqə imkanları məhduddur, uşaqların bir qismi bu şəkildə heç cür təhsil ala bilmirlər", - deyə Ontario Orta Məktəb Müəllimləri Federasiyasının prezidenti Harvey Bişof bildirib.

### Hindistanlı məktəblilər radio ilə öyrənir

Hindistanda daha acınacaqlı vəziyyətdir. Burada məktəblər bütün böyük şəhərlərdə, məsələn, Dehlidə açıq deyil. Orada uşaqlar üçün onlayn dərslər tövsiyə olunur. Hər şey gözəl olardı, amma bir çox ailədə kompüter və noutbuklar, hətta mobil telefonlar da yoxdur. Mövcud vəziyyətdən çıxış yolu kimi hind məktəblilərinə radio və televizor vasitəsilə təlim təklif olunub. Onlar dərsləri dinləyir və tapşırıqları yerinə yetirirlər, lakin onların dəqiqləşdirici suallar verəcəkləri kimsə yoxdur.

### Amerika məktəbliləri müəllimlərlə ünsiyyətdən məhrum olublar

ABŞ prezidenti Donald Tramp hələ yazda distant təhsil barədə mənfi rəydə olduğunu bildirərək tədrisin bu formasının "məktəbdə əyani təhsil almaqla müqayisədə dəhşətli olduğunu" söyləyib və payızdan etibarən təhsil müəssisələrinin açılmasında israr edib. Lakin səhiyyə məmurları qəti bildirirlər ki, məktəblər lazımi təhlükəsizlik tədbirləri olmadan açılmamalıdır.



Nəticədə ölkənin 13 mindən çox məktəb dairəsinin rəhbərləri prezidentin məktəblərin açılması barədə tələbi ilə təhlükəsizlik tələbləri və uşaqların sağlamlığına qayğı arasında qalıblar. Beləcə bir sıra böyük ştatlarda məktəblər açılmayıb.

Məsələn, Nyu-Yorkda oktyabrın əvvəlində 300 məktəb bağlanıb, dərslər müəllimlə ünsiyyəti nəzərdə tutan onlayn təhsilə və tapşırıqların, layihələrin icrası , yazılmış video dərslərin izlənməsini nəzərdə tutan fərdi təlimə keçib.

Nyu-Yorkdan fərqli olaraq Moskvada valideynlər və şagirdlər hələ də müəllimlərlə ünsiyyət qururlar, dərslər cədvəl üzrə keçirilir və təhsil prosesi kəsilmir. Bununla yanaşı, məktəblərdə təhlükəsizlik tədbirləri və yuxarı siniflər üçün qismən distant format yoluxma riskini əhəmiyyətli dərəcədə azaldır.

### Çexiya məktəbləri onlayn dərslər üçün avadanlıq ala bilməyiblər

Sentyabrın sonundan Çexiyada məktəblər distant təhsilə keçib. Müəllimlərin fikrincə, bu format ibtidai məktəb üçün əlverişli deyil, çünki uşaqlar valideynlərinin köməyi ilə məşğul olmalıdırlar. Bundan əlavə, bir çox məktəblər hələ onlayn dərslər üçün avadanlıq ala bilməyiblər.

Moskvada bütün məktəblər çoxdan lazım olan cihazlarla təchiz edilib, buna görə də məsafədən tədrisin təşkili ilə bağlı problem yoxdur. Paytaxtda ibtidai məktəbin şagirdləri və beşinci sinif şagirdləri əyani dərslərə qayıdıblar.

Bu, bir neçə səbəbdən edilir. Birincisi, yuxarı sinif şagirdləri ilə müqayisədə onların koronovirusa yoluxma ehtimalı daha azdır.

İkincisi, kiçikyaşlıların məsafədən tədrisə uyğunlaşması daha çətindir. Bundan əlavə, onlar evdə böyüklərin nəzarəti altında olmalıdırlar ki, bu da çox vaxt mümkün deyil, çünki valideynlər işləyir.

Beşinci sinif şagirdləri üçün orta təhsilin ilk ili başlayır, yeni sinif rəhbəri və yeni müəllimlərlə ünsiyyətdədirlər, uşaq üçün olduqca stresli bir dövrdür. Buna görə də onlar üçün məktəbdə gündəlik dərslər daha yaxşıdır.

### İsrail müəllimləri məsafədən tədrisə hazır deyillər

İsraildə bütün məktəblər bağlanıb, uşaqlar uzaqdan oxuyur. Lakin bütün müəllimlər dərsləri onlayn formatda keçirməyə hazır deyil. "Müəllimlərin hamısı internetdə necə dərs deməyi bilmir, uzun illər ərzində heç kim uzaqdan təhsil almaq üzrə müəllimlər üçün təlim keçməyib, çünki heç kim belə bir "bumu" gözləmirdi", - deyə İsrail mediası məktəb direktoruna istinadən xəbər verir.

Son internet sorğusuna görə, rəyi soruşulanların 62%-i qeyd edib ki, koronavirus epidemiyası dövründə İsrail məktəblərində onlayn təhsilə keçid zəruri və əsaslandırılmış tədbir olub. Eyni zamanda respondentlərin 75%-i hesab edir ki, İsraildə yeni tədris ilinə hazırlıq qənaətbəxş səviyyədə deyil.